www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 aprel 2024-cü il Çərşənbə axşamı № 73 (8446) Qiymətı 60 qəpik

**Xəbər**

**Qərbi qorxuya salan TikTok - Azərbaycana da risk varmı...**

yazısı səh.3-də

**Gündəm**

**Qərb Zəngəzur dəhlizinin açılmasını istəyirmi - rəy**



İngilis səfirin Naxçıvana qəfil səfərinin səbəbi

yazısı səh.8-də

**Bakının İrəvana 9-cu məktubu - sülh yazışması nə vaxt bitəcək...**

yazısı səh.7-də

**44 günlük savaşın qalibinə "44" kodlu sanksiya absurdu**

yazısı səh.6-də

**Avrokomissiyanın mühüm diplomatı Bakıya gələcək**

yazısı səh.3-də

**Azərbaycanla Ermənistan arasında 35 sərhəd dirəyi quraşdırılıb**

yazısı səh.5-də

**Müsavatın növbəti başqanı bəlli oldu**

yazısı səh.2-də

**Gürcüstan vətəndaş qarşıdırmasına sürüklənir - tətikçi kimdir?**

yazısı səh.13-də

**Anar Məmmədli saxlanıldı**

yazısı səh.2-də

**Ev, yoxsa market turşusu yeyək - zəhərlənmə təhlükəsi...**

yazısı səh.15-də

**ADNA terrorundan 15 il ötür - açıq qalan suallar**

yazısı səh.14-də

**İmtahanların saatında isti hava şəraiti ilə əlaqədar dəyişiklik edildi**

yazısı səh.15-də

# BLİNKENİN ƏLİYEVƏ ZƏNGİNİN SİRRİ - VAŞİNQTONUN TƏŞƏKKÜRÜ VƏ ...

ABŞ-ın baş diplomatı Ermənistanla Azərbaycan arasında əldə olunmuş razılaşmaları təqdir edib, amma..; **Asim Mollazadə:** "Birləşmiş Ştatlar və Fransa erməni diasporunun təzyiqi altındadır"

yazısı səh.9-də




## Nəcməddin Sadıkova ağır ittihamlar: "Mənə 500 min manat verdi ki..."

Nazirlikdən 143 milyon oğurlayanların məhkəməsində şahid sabiq Baş Qərargah rəisini ifşa etdi; "Mən onun göstərişlərini icra etmişəm"; general qandallanacaqmı...

yazısı səh.4-də



**Paşinyan üçün kritik iki gün: "Taleyi bu tarixdə həll olunacaq..."**

yazısı səh.11-də



**Rasim Musabəyova sərt reaksiya: "Başkənd bu xalqın qılınc haqqıdır"**

yazısı səh.5-də



*Elxan Şahinoğlu:*

**"Azərbaycanla Ermənistana vasitəçi lazım deyil"**

yazısı səh.3-də



## Ərdoğan Baxçalını evində ziyarət etdi

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalını evində ziyarət edib.**

Musavat.com xəbər verir ki, bu barədə Türkiyə Prezident Administrasiyası məlumat yayıb.

Məlumatda prezidentlə partiya sədrinin fotoları da yer alıb.



## İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti 5 şəhərə xidmət göstərəcək

**İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini göstərən publik hüquqi şəxsdir.**

APA-nın xəbərinə görə, bu, Nazirlər Kabinetinin təsdiqlədiyi “İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti” publik hüquqi şəxsin Nizamnaməsində əksini tapıb.

Xidmət Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (bundan sonra - Agentlik) tabeliyində fəaliyyət göstərir. Xidmətin idarəetmə orqanı onun İdarə Heyətidir. İdarə Heyəti Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyəti beş üzvdən - Agentliyin sədrinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İdarə Heyəti sədrindən və onun dörd müavinindən ibarətdir. Xidmətin nizamnamə fondu 2 400 427 052 (iki milyard dörd yüz milyon dörd yüz iyirmi yeddi min əlli iki) manatdır.



## Azərbaycanın qadın şahmatçısı Avropa çempionu oldu

**Azərbaycanın qadın şahmatçısı Ülviyyə Fətəliyeva Yunanıstanın Rodos şəhərində keçirilən Avropa çempionatının qalibi olub.**

Apasport.az xəbər verir ki, 27 yaşlı qrossmeyster bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutub.

O, 10 qarşılaşmada 8,5 xal toplamaqla bunu bacarıb. Zəka sahibi sonuncu turda Gürcüstan təmsilçisi Nino Batsiaşvili ilə heç-heçə edib - 0,5:0,5.

Ülviyyə Fətəliyeva Avropa çempionu titulunu qazanan ilk Azərbaycan şahmatçısı kimi tarixə düşüb.

# Fazil Mustafa: “İran əlaqələri normallaşdırmaq istəyirsə, bu addımlardan əl çəkməlidir”



**“İranla əlaqələrin normallaşdırılması bizdən asılı məsələ deyil. Bu, birbaşa İranın özünün yeritdiyi siyasətə bağlıdır”.**

Bu sözləri Metbuat.az-a açıqlamasında millət vəkili Fazil Mustafa deyib. O, Tehranda səfirliyimizdə baş verən terror hadisəsini xatırladaraq bildirib ki, İranın Azərbaycan daxilində yetişdirdiyi zombilər vasitəsilə terror aktları törətməsi qonşuluq prinsiplərinə tamamilə ziddir:

“Azərbaycanın Tehrana səfir göndərməsi İranın terrorçu fəaliyyətdən nə dərəcədə uzaqlaşacağından asılıdır. İran bizimlə səmimi münasibətlə normal əlaqələr yaratmağı düşünürsə, bu kimi addımlardan əl çəkməlidir. Biz İranın daxilində belə bir proseslərə rəvac vermədiyimiz halda, Tehranın bunu etməsi məntiqli davranış deyil. Digər tərəfdən, İranın Ermənistanla münasibətlərində də müəyyən hədləri keçməsi problemlər yaradır. Ona görə də bu kimi məsələlər birbaşa İranın səmimiyyətindən asılı olacaq”.

**Deputat qeyd edib ki, iki ölkə arasında qırmızı xətlər dəqiqləşərsə, İranda səfirliyinin açılmaması üçün bir səbəb qalmır:** “Azərbaycan qonşularla normal münasibətə tərəfdar olan ölkədir. Ölkəmiz hər hansı bir şəkildə bir ziddiyyətlərin yaşanmasına çalışmır və bunun üçün hətta daha çox güzəştə gedir.

Ermənistan işğalçı, İran da müəyyən dərəcədə terrorçulara yaşıl işıq yandıran ölkə kimi bizə qarşı hansısa addımlar atırsa, bu problemin səbəbi biz deyilik.

Düşünürəm ki, səfirliyə hücum edən şəxs haqqında verilən qərarın icrası ilə bağlı bir az ləngimə var. Bu, real icra olunmalıdır. Hər kəs görməlidir ki, Azərbaycana qarşı hər hansı bir şəkildə qəsd edən şəxslər həm də ciddi məsuliyyətə cəlb olunurlar. Hesab edirəm ki, İran dövləti də bu məsələdə anlayışlı addım ata bilir".



## Anar Məmmədli saxlanıldı

**Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDTM) rəhbəri Anar Məmmədli saxlanılıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı İbrahim Əmiraslanlı “Report”a bildirib ki, Anar Məmmədli barəsində araşdırma aparılır.

Anar Məmmədlinin vəkili Elçin Sadıqov "Turan"a bildirib ki, hüquq müdafiəçisi “Abzas Media” işi üzrə şahid qismində cəlb edilib.

## Havanın temperaturu iqlim normasından yüksəkdir



**Son günlər cənubdan ölkə ərazisinə daxil olan isti hava dalğasının təsiri nəticəsində mülayim cənub-şərq küləkləri fonunda ölkə ərazisində yüksək temperatur şəraiti qeydə alınır.**

APA xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov bildirib.

Xidmət rəisi qeyd edib ki, müşahidə olunan havanın temperaturu iqlim normasından yüksəkdir: "“Aprel ayı ərzində temperatur iqlim normasından 12 dərəcə yuxarı qeydə alınıb. Aylıq maksimal temperatur aprelin 27-də Bakıda və Abşeron yarımadasında 30, bölgələrdə isə 32 dərəcəyə çatıb".

Xidmət rəisinin sözlərinə görə, aprel ayında yüksək temperatur şəraiti qeydə alınsa da, rekord göstərici yenilənməyib. Çoxillik məlumatlara əsasən, aprel ayının rekord göstəricisi 1998 və 2012-ci illərdə qeydə alınıb, həmin vaxt Bakıda 31.5, bölgələrdə isə 36-38 dərəcə isti olub: "Ölkə ərazisində müşahidə olunan isti hava şəraitinin may ayının 2-dək davam edəcəyi və havanın maksimal temperaturunun Bakıda və Abşeron yarımadasında 25-30, bəzi bölgələrdə isə 27-32 dərəcə isti olacağı gözlənilir”.



## Müsavatın növbəti başqanı bəlli oldu

### İsa Qəmbər başqanlığa namizədliyini verdi

**Mayın 4-də Müsavat Partiyasının növbəti qurultayı keçiriləcək. “Yeni Müsavat”ın məlumatına görə, dünən Müsavat Partiyası Divanının və qurultaya hazırlıq üzrə təşkilat komitəsinin iclasları keçirilib. Toplantılarda mayın 4-də keçiriləcək XI qurultaya hazırlıq məsələləri müzakirə olunub. Partiyanın sabiq başqanı İsa Qəmbər başqanlığa namizədliyini irəli sürdüyü barədə rəsmi ərizə təqdim edib. Beləliklə, son günlərin “İsa Qəmbər Müsavat başqanlığına qayıdırmı?” sualı öz cavabını tapmış olub.**

İsa Qəmbərdən öncə partiyanın başqan müavini, vəkil Osman Kazımov və Səbayel rayon təşkilatının fəalı Namiq Ulubəy ötən həftə başqanlığa namizədliklərini irəli sürüblər. Müsavat başqanlığına namizədliyin irəli sürülməsi üçün son müddət bu gün başa çatır. İsa Qəmbərin namizədliyi rəsmiləşdikdən sonra digər müsavatçılardan kimlərinsə başqanlığa namizədliyini irəli sürməyəcəyi ehtimal edilir. Osman Kazımovun və Namiq Ulubəyin isə İsa Qəmbərin xeyrinə iddialarından çəkiləcəyi istisna deyil. Hazırkı başqan Arif Hacılı başqanlığa namizəd olmayacaq. Müsavatın Nizamnaməsi eyni şəxsin ardıcıl iki dəfədən artıq başqan seçilməsinə qadağa qoyur.

Müsavat Partiyasının XI qurultayı mayın 4-də Suraxanı rayonu, Əmircan qəsəbəsi, Səttar Bəhlulzadə adına Mədəniyyət Evində keçiriləcək.

**Etibar SEYİDAĞA,
“Yeni Müsavat”**

# Qərbi qorxuya salan TikTok - Azərbaycana da risk varmı...

## İlham İsmayıl: "Bu platforma ilə ölkəmizin hədəfə alınması problemi olduğunu düşünmürəm, çünki..."

**Finlandiya parlamentinin üzvü Hanna Kosonen Çin hökumətinin mümkün casusluğu səbəbindən TikTok sosial şəbəkəsinin tam qadağan edilməsi məsələsini qaldırıb. Bu barədə Kosonenin hökumətə müraciətində deyilir (Medianews.az).**

"Çin Kommunist Partiyasının nəzarətində olan bir şirkət tərəfindən yaradılan TikTok, casusluq uşaqların və gənclərin sağlamlığı və ictimai asayiş baxımından təhlükəlidir. Bir neçə Qərb rəsmisi təsdiqlənmiş casusluğa istinad edərək, TikTok-un iş telefonlarına endirilməsini qadağan edib", - deputatın məktubunda deyilir.

Hazırda təkcə Finlandiyada bir milyon yarım istifadəçi bir milyon yarım mikrofon və kameradan istifadə edərək Çin dövlətinə məlumat göndərir. Virtual casusluq bir proqramla effektivdir, halbuki insanlar üzərində ənənəvi casusluq bu miqyasda belə yaxınlaşmır. Deputatın fikrincə, əsas təhlükələrdən biri, tətbiqin alqoritminin istifadəçiyə hansı məzmunun göstəriləcəyini müəyyən etməsidir.

"Çin özü vətəndaşlarına belə bir proqramdan istifadə etməyə icazə vermir. Sırf bu səbəbdən Aİ-də həyəcan təbili çalınmalı və yüksək səslə çalınmalıdır", - Kosonen vurğulayır. Bununla əlaqədar o, hökumətə TikTok-un ölkədəki fəaliyyəti ilə bağlı riskləri başa düşüb-düşməməsi ilə əlaqədar bir sıra suallar verir: "Hökumət TikTok-un finlərin, xüsusən də fin uşaq və gənclərinin sağlamlığı və təhlükəsizliyi üçün yaratdığı təhlükələrlə necə məşğul olur? Hökumət bütün Aİ və ya Finlandiya ərazisində TikTok-u qadağan etməklə vətəndaşları qorumaq üçün tədbirlər görmək niyyətindədirmi?" - deputat soruşur.

Bundan əvvəl ABŞ prezidenti Co Bayden ölkədə TikTok sosial şəbəkəsini qadağan edən qanun layihəsini imzalayıb və buna baxmayaraq, seçki kampaniyasında bundan istifadə etməyə davam edib.

Onu da qeyd edək ki, bu il ən çox TikTok istifadəçisi olan 20 ölkənin siyahısında ABŞ yenə də birincidir. Siyahı aşağıdakı kimidir:



**1.** ABŞ: 148,9 milyon nəfər;
**2.** İndoneziya: 126,8 milyon nəfər;
**3.** Braziliya: 98,5 milyon nəfər;
**4.** Meksika: 74,1 milyon nəfər;
**5.** Vyetnam: 67,7 milyon nəfər;
**6.** Rusiya: 58,5 milyon nəfər;
**7.** Pakistan: 54,3 milyon nəfər;
**8.** Filippin: 49 milyon nəfər;
**9.** Tayland: 44,3 milyon nəfər;
**10.** Türkiyə: 37,7 milyon nəfər.

Bəs sadalanan risklər Azərbaycan üçün də keçərlidirmi?

**Mövzu ilə bağlı təhlükəsizlik üzrə ekspert İlham İsmayıl "Yeni Müsavat"a danışıb:** "TikTok-un casusluqla bağlı nə qədər rol oynadığını deyə bilmərəm, amma şəxsən mənim üçün bu sosial şəbəkə mənasız xəbərlər məkanıdır. Bu sosial şəbəkədən istifadə etmirəm.

Ümumiyyətlə, sosial şəbəkələr bir vasitədir və yeni texnologiyalarla bağlı artıq yeri gələndə casusluq məqsədilə istifadə oluna bilər. Yəni ola bilsin ki, hansısa sahənin təbliğatı ilə bağlı TikTok-dan istifadə olunsun. Amma hələ ki TikTok-da ciddi təbliğata rast gəlməmişik. Bu sosial şəbəkədə əsasən bayağı təbliğlər müşahidə olunur.

Hər bir ölkənin özünə əxsus təhlükəsizlik konsepsiyası var. Bu təhlükəsizlik, onun elementlərinə görə kimlərsə qəbul edə bilər ki, TikTok-dan maksimum istifadə olunmasın, hətta qadağan olunsun, amma şəxsən mən Azərbaycanın TikTok vasitəsilə hədəfə alınması problemini görmürəm. Çünki qeyd etdiyim kimi, ölkəmizdə bu sosial şəbəkədə əsasən çox aşağı səviyyəli, bayağı materialların təbliğatına geniş yer verilməsinə rast gəlirəm. Ona görə xüsusi xidmət orqanı deyil, mədəniyyət, təbliğat-təşviqatla bağlı məşğul olan qurumlar məsələ qaldıra bilərlər ki, nələrsə qadağan olunsun".

Onu da əlavə edək ki, bu günlərdə Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycanda TikTok media platformasına məhdudiyyətlərin tətbiqi barədə ictimai mövqe öyrənib. Sorğunun nəticələrinə əsasən, 74,9% TikTok sosial media platformasına məhdudiyyətlərin tətbiq edilməli olduğunu ifadə edib. 21,2% məhdudiyyətləri dəstəkləmədiyini bildirib, 3,9% fikir bildirməkdə çətinlik çəkib. Respondentlərin bu barədə rəylərində əsas fərq yaş qrupları üzrə qeydə alınıb. Belə ki, gənc yaş qrupuna aid hər üç nəfərdən ikisi məhdudiyyətlərin tətbiq edilməməsi mövqeyindən çıxış edib. Sorğular 2024-cü ilin 15-18 mart tarixlərində, 18 yaş və ondan yuxarı 390 respondent arasında kompüter dəstəkli telefonla müsahibə üsulundan (CATI) istifadə olunmaqla keçirilib. Seçmə ehtimallı üsulla ölkə üzrə əhalinin paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. 12 iqtisadi rayon seçmə çərçivəsində əhatə olunub. Təsadüfiliyi təmin etmək məqsədilə sözügedən iqtisadi rayonlar üzrə inzibati rayon və şəhərlərə aid telefon nömrələri müvafiq məlumat bazasından xüsusi proqram vasitəsilə sistemli üsulla seçilərək zənglər olunub. Sorğular tam anonim və könüllü iştirak əsasında aparılıb. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edir.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Avropa Komissiyasının mühüm diplomatı Azərbaycana səfər edəcək



Gert Yan Kupman

**Avropa Komissiyasının Qonşuluq və Genişlənmə Danışıqları üzrə baş direktoru Gert Yan Kupman ikitərəfli və regional əməkdaşlığı müzakirə etmək və yeni təşəbbüslər irəli sürmək üçün Cənubi Qafqaza səfər edəcək.**

APA xəbər verir ki, Avropa Komissiyasının rəsmisi aprelin 30-dan mayın 4-dək Ermənistan, Gürcüstan və Azərbaycanda səfərdə olacaq.

Mayın 3-də və 4-də Koopman Aİ-Azərbaycan əməkdaşlığını, o cümlədən regional əlaqə və bərpa olunan enerji sahəsində əməkdaşlığı müzakirə etmək üçün Azərbaycana səfər edəcək. O, hökumət rəsmiləri, o cümlədən Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevlə görüşəcək.

Baş direktor potensialın gücləndirilməsi, mina riski ilə bağlı maarifləndirmə və qurbanlara dəstək yaradılması kimi məsələlərin həllinə kömək etmək üçün Aİ-yə üzv dövlətlərin nümayəndələri ilə birlikdə Azərbaycanda minalarla mübarizə üzrə Avropa Komandası təşəbbüsü ilə çıxış edəcək.

Baş direktor AİB ilə birlikdə Mikro, Kiçik və Orta Müəssisələrin maliyyə inklüzivliyini yaxşılaşdırmaq üçün Aİ-nin dəstəyini də elan edəcək.

# "Azərbaycanla Ermənistana vasitəçi lazım deyil" - politoloq

**"Qazaxıstan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Aybek Smadiyarovun "Qazaxıstan hakimiyyəti Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Almatıda görüşünü təşkil edərkən danışıqlarda vasitəçi rolunu oynamayacaq" açıqlamasını faydalı hesab edirəm. Azərbaycanla Ermənistana vasitəçi lazım deyil, birbaşa danışıqlar müsbət nəticə verir".**

Musavat.com xəbər verir ki, bu fikirləri **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** qeyd edib.



Elxan Şahinoğlu

O bildirib ki, 30 il ərzində nə qədər vasitəçi oldu, heç biri işə yaramadı:"Tərəflərin vasitəçiyə yox, görüş üçün məkana ehtiyacları var, onu da Qazaxıstan hakimiyyəti təqdim edir. Qazaxıstan XİN nümayəndəsi Astananın təklifini "good offices" (yaxşı ofis) kimi qiymətləndirib. Qazaxıstan vasitəçi olmasa da, Azərbaycanla Ermənistan arasında razılaşmanın əldə edilməsini arzulayan əsas dövlətlərdəndir. Astana Bakı və Ankara qədər Zəngəzur dəhlizinin işə düşməsini istəyir. Bu dəhliz Qazaxıstanın da baş rol oynayacağı Orta dəhliz layihəsinin reallaşmasını sürətləndirəcək. Qazaxıstan prezidentinin qısa zaman kəsiyində Azərbaycana və Ermənistana səfərləri həm də bununla bağlı idi".

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 73 (8446) 30 aprel 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycançılıq ideyasının təbliği**

# “Azərbaycançılıq ideologiyasının alternativi yoxdur” - deputat

## Musa Qasımlı: “Bu ideologiyadan imtina edilməsi etnik millətçilikdir”

**Ulu öndər Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası Azərbaycanda yaşayan, onu vətən bilən bütün fərdləri birləşdirən ideologiyadır. Azərbaycançılıq milli məfkurədir. Azərbaycançılığın dövlətçiliyə tətbiqi ölkənin bütün istiqamətlərdə möhkəmlənməsinin təməlində dayanan mühüm faktordur. Heydər Əliyev ronstitusiyamızda ilk dəfə bunu nəzərə aldı.**



Dünya azərbaycanlılarının qurultayında məşhur deyim olan “Mən fəxr edirəm ki, azərbaycanlıyam” ifadəsini işlətdi və qeyd etdi ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir, müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır, hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycançılıq ideologiyası böyük dövlət xadimi Heydər Əliyevin Azərbaycan cəmiyyətinə təqdim etdiyi universal dəyərlər sistemidir. Eyni zamanda azərbaycançılıq ideologiyası Azərbaycan cəmiyyətinin bütün təbəqələrində qəbul edilən, mənimsənilən və həyat tərzinə çevrilən bir ideoloji xətdir. Azərbaycançılıq bizim həm dövlət, həm də milli ideologiyamızdır. 2023-cü il-Heydər Əliyev İli Ulu öndərin müəllifi olduğu bu ideologiyanın təbliği üçün yeni imkanlar açdı.

Təəssüflər olsun ki, Azərbaycanda özünü müxalifət adlandıran bəzi marginal siyasi qruplar var ki, hətta bu cür müstəsna əhəmiyyət daşıyan ideologiyaya qarşı da çıxmaqdan çəkinmirlər. Bu barədə “Yeni Müsavat”a şərhində **Milli Məclisin deputatı, professor Musa Qasımlı** bildirib. Musa Qasımlı həmin marginal siyasi qruplara, şəxslərə azərbaycançılıq ideologiyasının mahiyyəti, əhəmiyyəti barədə öyrənməyi və yalnız bundan sonra fikirlər dilə gətirməyi tövsiyə edib: “Bilməyənlər bilsin ki, azərbaycançılıq məfkurəsi sadəcə bir ifadə deyil, dərin siyasi-ictimai, mənəvi və strateji hədəflər güdən bir məsələdir. Bu ideologiyanın kökləri bizim milli kimliyimizin formalaşmasına, muxtariyyət qurmağımıza çalışmağımıza, müstəqil dövlət qurmağımıza gedib çıxırsa, onun sistem halına salınması Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycançılıq tək vətən, tək millət, tək dövlət, tək bayraq deməkdir. Azərbaycançılıqda milli birlik, köklərinin müxtəlif olmasına baxmayaraq bütün azərbaycanlıların tək dövlət, tək bayraq, tək vətəndə birləşməsidir. Azərbaycançılıq ideologiyası ilə Qusardan Astaraya, Naxçıvandan Ağstafaya qədər bütün vətəndaşlar hamısı işğalçıya qarşı çiyin-çiyinə döyüşdülər. Vətən müharibəsi göstərdi ki, ölkədə xalq-iqtidar, xalq-ordu birliyinin kökündə də məhz həm də azərbaycançılıq ideologiyası dayanır. Bu ideologiyanın təsiri nəticəsində həssas məsələlərdə xalq olaraq bir yumruq olmağı bacardıq və işğalçı separatçı ermənilərin başına endirdiyimiz "dəmir yumruq"la paralel həmin dövrdə Qarabağın işğaldan azad olunduğu 44 günlük savaş dönəmində cəmiyyətin içərisində də “Vahid Vətən”, “Vahid Dövlət” və “Vahid Azərbaycan” anlayışı ətrafında sıx birlik yarandı.

Azərbaycançılıq millətimizin bu günü və gələcəyidir. Çox təəssüf edirəm ki, bəzən mediada bir neçə adam azərbaycançılığın əleyhinə çıxır. Mən isə onlardan soruşmaq istərdim; Azərbaycançılığın alternativi nədir? Azərbaycançılıq olmasa on milyondan çox Azərbaycan vətəndaşını nə gözləyir? Bu sualların cavabı aydındır. Azərbaycançılıqdan imtina edilməsi etnik millətçilikdir. Etnik millətçilik isə tək dövlətin, tək millətin, tək vətənin parçalanması təhlükələri ilə üz-üzə qalmaq deməkdir. Azərbaycançılıqdan imtina etnik qarşıdurmalar deməkdir".

**Millət vəkili qeyd etdi ki, bu gün Azərbaycana düşmən olan xarici dövlətlər və mərkəzlər dini birliyimizi pozmağa çalışdıqları kimi, milli birliyimizi də pozmağa çalışırlar:** “Bu bəd niyyətlərin qarşısının alınmasında azərbaycançılıq ideologiyası mühüm əhəmiyyət daşıyır. Azərbaycançılıq hamını birləşdirən bir siyasi, iqtisadi, ideoloji mənəvi məfkurədir. Azərbaycançılığın əleyhinə çıxmaq müstəqil Azərbaycan dövlətinin əleyhinə çıxmaq deməkdir, milli birliyimizin köklərini qazmaq deməkdir. Hesab edirəm ki, bu barədə danışanlar ideyanın, ideologiyanın partiyaların ideologiyalarının, milli ideyanın və milli idealın nə demək olduğunu aydın bilməlidirlər. Azərbaycançılıq dünyadakı bütün Azərbaycanlıları dövlətimiz, vətənimiz, bayrağımız ətrafında birləşdirən bir məfkurədir”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Etibar SEYİDAĞA

# Nəcməddin Sadıkova ağır ittihamlar: “Mənə 500 min manat verdi ki...”

## Nazirlikdən 143 milyon oğurlayanların məhkəməsində şahid sabiq Baş Qərargah rəisini ifşa etdi; “Mən onun göstərişlərini icra etmişəm”; general qandallanacaqmı...

**Müdafiə Nazirliyinin mənimsəməyə görə tutulmuş Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi davam edir. Nizami Məmmədovla bərabər müttəhimlər kürsüsünə Hərbi Hava Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi polkovnik Cəlal Kazımov, Quru Qoşunların Maliyyə İdarəsinin rəisi Bayram Bayramov və Hərbi Dəniz Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi Vüsal Əlizadə çıxarılıblar.**




Təqsirləndirilən şəxslərə Cinayət Məcəlləsinin 179.4-cü (xüsusi ilə külli miqdarda ziyan vurmaqla mənimsəmə törətmək) maddəsi ilə ittiham irəli sürülüb. Musavat.com xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakim Fikrət Əliyevin sədrliyi ilə keçirilən prosesdə şahid qismində Müdafiə Nazirliyinin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi Məlikməmməd Qurbanov ifadə verib.

Qurbanov bildirib ki, polkovnik rütbəsindədir, 2019-cu ildə ordu sıralarından tərxis olunub.

Məhkəmədə məlum olub ki, M.Qurbanov Müdafiə Nazirliyində baş verən 143 milyon manatlıq yeyinti ilə bağlı cinayət işi üzrə Dövlət Təhlükəsizliyi Xidmətindən aparılan istintaq zamanı məsuliyyətə cəlb olunub. Sonradan onun barəsində olan cinayət işi ayrıca icraata götürülüb və hazırda barəsində olan cinayət işi üzrə məhkəmə prosesi davam edir.

Prosesə sədrlik edən hakim bildirib ki, M.Qurbanov Nizami Məmmədov və digər şəxslərin cinayət işi üzrə şahid qismində dindirilməsi üçün dəvət olunub. O, məhkəmədə vəkili Ceyhun Hacıyevin iştirakı ilə dindirilib.

M.Qurbanov bildirib ki, idarə rəisi olduğu dövrdə göstərişləri baş qərargah rəisi Nəcməddin Sadıkovdan alıb.

**Polkovnik qeyd edib ki, Nəcməddin Sadıkovun tapşırığı ilə Nizami Məmmədova iki dəfəyə pul verib:** “Nəcməddin Sadıkov məni kabinetinə çağıraraq 2018-ci ildə 300 min, 2019-cu ildə isə 500 min manat verdi ki, Nizami Məmmədova çatdırım. Mən də həmin pulları Nizami Məmmədova çatdırmışam. Bu pulun Nizami Məmmədova nə üçün verildiyini bilməmişəm. Çünki bu barədə heç bir söz soruşmamışam, söhbətimiz də olmayıb. Mən Baş Qərargah rəisinin göstərişlərini icra etmişəm. Hansı şirkətlərlə bağlı müqavilə bağlamaq lazımdır, bunu da Baş Qərargah rəisi göstəriş verib. Şirkətlərlə bağlanan müqavilələri, eyni zamanda bağlanan müqavilələrlə bağlı Baş Qərargah rəisinə məruzə etmişəm. Baş Qərargah rəisi də məni çağıraraq deyirdi ki, hansı şirkətlə müqavilə bağlamaq olar, hansı ilə olmaz. Şirkətlərlə bağlı aparılan komissiya üzvləri 12 nəfərdən ibarət olub. Burada bir neçə nazirliyin nümayəndəsi təmsil olunub. Komissiyanın sədri isə mənim müavinim olub...”

M.Qurbanov onu da bildirib ki, Nizami Məmmədovun satınalma və təchizata heç bir aidiyyəti olmayıb.

O deyib ki, N.Məmmədov şirkətlərlə bağlanan müqavilələrdə iştirak etməyib, danışıqlardan xəbəri olmayıb. Bildirib ki, müqavilələr hansı məbləğlərin yazılması barədə də Nizami Məmmədov məlumatsız olub.

Məlikməmməd Qurbanovun sözlərinə görə, işlədiyi 2015-2019-cu illər ərzində nazirlik tərəfindən ümumilikdə şirkətlərdən 19 milyon 600 min manat pul alınıb.

Bu zaman Nizami Məmmədov Məlikməmməd Qurbanovun ifadəsinə münasibət bildirib. General deyib ki, satınalma ona aidiyyəti olmayan bir sahədir, bunu Məlikməmməd Qurbanov da ifadəsində təsdiq edir: “2023-cü ilin iyulunda bu məsələ ilə bağlı mənə yeni ittiham verdilər. Mən ittihamla ibtidai istintaq bitəndə tanış oldum. Əgər Məlikməmməd Qurbanovun dediyi məbləği alsaydım, deyərəm almışam. Nəcməddin Sadıkovun mənə nə borcu var idi, nə tabeçiliyi var idi, nə də məndən qorxusu yox idi ki, mənə o qədər pul göndərsin. Mən Maliyyə və Büdcə İdarəsinə rəis gələnə kimi, üzr istəyirəm ora "bazar" idi, mən gələndən sonra satınalma ilə bağlı məsələləri yığışdırdım. Daha hər hansı şirkət müdiri yanıma gələ bilməzdi".

Daha sonra Məlikməmməd Qurbanovun ibtidai istintaq zamanı verdiyi ifadəsinin ziddiyyətli hissələri, həmçinin ibtidai istintaq zamanı Nizami Məmmədovla üzləşmə zamanı yazılan ifadələr elan edilib. Məlikməmməd Qurbanov həmin ifadəsində qeyd edib ki, Maliyyə və Büdcə İdarəsi, sadəcə, icra sənədləri əsasında həmin şirkətlərə ödənişlər edib.

Qeyd olunub ki, Nizami Məmmədov yalnız ödəniş tapşırıqlarına imza atıb, idarənin işi ancaq ödənişləri həyata keçirmək olub. Əlavə olunub ki, Maliyyə və Büdcə İdarəsinə müqavilələr hazır gəlib.

Bundan sonra Nizami Məmmədovun vəkili Rəşad Mirmehdizadə suallar ünvanlayıb. Vəkilin əldə olunan gəlirdən nə qədər özünə götürməsi, həmin dövrlərdə şirkətlərdən gələn faizləri kimlərə verilməsi və digər suallarına Məlikməmməd Qurbanov cavab verməkdən imtina edib.

Daha sonra hərbi hissələrdən birinin maliyyə xidmətinin rəisi olmuş Cavidan Mirzəyev ifadə verib. O, tərəfindən vurulmuş ziyanı tam ödədiyini deyib.

Sonra isə şirkət rəhbərləri Azər Rəsulov və Hüseyn Əliyev ifadə veriblər. Onlar Müdafiə Nazirliyi ilə bağlanan 670 min manatlıq müqavilə ilə bağlı danışıblar.

Növbəti proses mayın 3-də davam edəcək.

Xatırladaq ki, cinayət işi üzrə ümumilikdə dövlətə dəymiş ziyan 143 milyon manatdır.

Cinayət işləri ayrı-ayrı icraatlarda baxılması üçün məhkəməyə göndərilib. İstintaq dövründə dövlətə vurulmuş ümumi ziyanın 40 milyon manatı ödənilib.

Cinayət işi üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb.

❑ **Elşən MƏMMƏDƏLİYEV, Musavat.com**

YENİ MÜSAVAT
N 73 (8446) 30 aprel 2024



# Deputatın Başkənd açıqlaması cəmiyyəti hiddətləndirdi

## Rasim Musabəyova sərt reaksiya:
## "Başkənd bu xalqın qılınc haqqıdır"

**Deputatlar Rasim Musabəyov və Anar İsgəndərovun Başkəndlə bağlı açıqlamaları cəmiyyətdə hiddətə səbəb olub.**

İnsafən A.İsgəndərov həmkarına baxanda abırlı danışıb. Sadəcə, onun Gədəbəydə yerləşən Başkənd kəndini Qazax ərazisi kimi təqdim etməsi sərt reaksiya doğurub. Hər kəs deyir, bu da mənim tarixçi alimim...

A.İsgəndərov isə fikirlərinin yanlış anlaşıldığını bildirib.

"Məsuliyyətli bir insan və alim kimi öz yazdıqlarıma, dediklərimə cavabdehəm" - deyə o qeyd edib: "Başkənd tarixi Azərbaycan torpağıdır, bura necə anklav ola bilər? İctimai TV-də də bunun tarixi haqqında danışmışam. 1783-cü ildə Kartli-Kaxetiya hökmdarı II İrakli Çar Rusiyası ilə Georgievsk müqaviləsi imzalayıb. 1801-ci ildə indiki Gürcüstan ərazisi Rusiya tərəfindən işğal olundu. Həmin ildə Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarının zəbt olunması ilə Azərbaycanın Çar Rusiyası tərəfindən işğalına başlandı. Bəs Qazax-Şəmşəddil haranı əhatə edirdi? Qazax-Şəmşəddilə Qazax, Ağstafa, Şəmkir, Zəyəm, Gədəbəy, İcevan və Dilican torpaqları daxil idi. Bu torpaqlar da Gürcüstan ərazisi işğal ediləndə Çar Rusiyasının tərkibinə qatıldı. Məni Qazax və Gədəbəyi tanımamaqda ittiham edirlər. Ancaq mən Başkəndə Qazax ərazisi deməmişəm, tarixdən danışmışam. Yeni tarixi faktlar da Başkəndin Azərbaycan torpağı olduğunu sübut edir. Biz nə üçün onu Ermənistana verməliyik?"

R.Musabəyov isə deyib ki, Başkənd Azərbaycanda strateji əhəmiyyətli yer deyil...

Onun kimliyini göstərəcək qısa bir arayiş verək. O həmin şəxsdir ki, babası bolşevik Qəzənfər Musabəyovdur. Q.Musabəyovun da bacısı hər kəsin tanıdığı Ayna Sultanovadır. Hər iki şəxs Xalq Cümhuriyyətimizə qarşı çıxan və sonralar elə müdafiə etdikləri sovetlər tərəfindən güllələnən şəxslərdir, həmçinin Ayna Sultanovanın həyat yoldaşı Həmid Sultanov. Bu faktlar hər kəsə çox şey deyir...

**Bu biabırçılıqla bağlı öz Facebook profilində ilk məlumatı Sosial Tədqiqatlar Mərkəzinin Media və Kommunikasiya departamentinin rəhbəri, siyasi şərhçi Əziz Əlibəyli yayıb. "Yeni Müsavat" sözügedən məsələ ilə bağlı həmin mövqeyi təqdim edir:** "İTV-nin "Azərbaycanın 4 eksklav kəndi mübadilə edilə bilərmi?" materialında şərh verən tarixçi alim, deputat Anar İsgəndərov Başkəndin Qazax ərazisində olduğunu bildirir (tarixçinin tarixdən məlumatlılıq dərəcəsi), digər deputat Rasim Musabəyov isə Başkəndin heç bir "strateji əhəmiyyəti" olmadığını bildirir və gələcəkdə "mübadilə üçün" öz aləmində "əsas yaratmağa" cəhd edir. Musabəyov tarixi yaxşı bilməli idi, axı Başkəndin erməni işğalında qalması Şınıx zonasının 28 kəndi ilə yanaşı, bütöv Gədəbəy, Şəmkir (dolayısı ilə Gəncəyə qədər) Tovuz ərazisinin təhlükə altına düşməsi deməkdir.

Burada televiziya maraqlanmalı idi ki, ekspert adı ilə danışan şəxslərin ağıllarına gələn sözləri işlətməsini vermək olarmı? İkincisi, bu şəxslərin səthi məlumatlılıq səviyyəsi ölkə rəhbərliyinin sözügedən istiqamətdə apardığı siyasətə nə dərəcədə adekvatdır və onun, komandasının baxışlarına zərbə vuraraq, niyə Ermənistan baş nazirinin istinad əlini gücləndirməyə xidmət etməlidir?

Nəhayət, bu iki şəxslə bağlı isə yalnız təəssüf edirəm və bildirirəm ki, Azərbaycan torpağı sizin şəxsi məqsədlərinizdən istifadə üçün nəzərdə tutulmayıb ki, onu kimə gəldi bəxş edəsiniz, minlərlə şəhidin haqqı var üzərində..."

**1992-ci ildə Gədəbəydə özünümüdafiə batalyonu yaradaraq Başkəndin ermənilərdən təmizlənməsində mühüm rol oynayan qəhrəman döyüşçü Faiq Mahmudov Musavat.com-a açıqlamasında olduqca sərt danışıb:** "O danışığa diqqətlə qulaq asdım. İnanın ki, özümə yer tapa bilmədim. Yoxlanılsa, bu səviyyəsizin ermənilərlə əlaqəsi belə üzə çıxar. Yaşıma hörmət edib, başqa ağır ifadələr işlətmirəm. Başkənd Azərbaycan üçün ən strateji əhəmiyyətə malik olan ərazilərimizdən biridir. Biz o vaxt Başkəndi ala bilməsəydik, onların aşağı düşməyə ehtiyacları belə yox idi. Belə ki, Yasamalın başında durub Kürdən o tərəfi tam, rahat şəkildə götürəcəkdilər. Yevlaxdan üzü Gədəbəyə tərəf ermənilərin tam nəzarətinə keçirdi. İndi görün, bu deputat hansı ifadələri işlədir. Gədəbəyin getməsi dərhal Tovuzun, Şəmkirin, Gəncənin, Yevlağın, Qazağın, Samuxun getməsi demək idi. Bu ərazilər ani anda əldən gedəsi idi. Rasimin bu qədər də irəli gedəcəyini heç güman etməzdim. Hansı əsasla deyir ki, Başkəndin heç bir strateji əhəmiyyəti yoxdur? Əgər belədirsə, niyə ermənilər var gücləri ilə bu ərazinin qaytarılmasına çalışırlar? Bu, çox savadsız bir danışıqdır. Bu, şəxsən gədəbəylilərə qarşı bir təhqirdir. Qonşu rayonlar üçün də, bütövlükdə Azərbaycanımız üçün təhqirdir.

Əgər hansısa bir formada Başkənd əlimizdən gedərsə, həyatım orada bitər. O torpağı qanımız bahasına aldıq, nə qədər şəhidlər verdik.

O döyüş gedən dağları görmüsünüz. Biz indi Tağlar kəndimizi tələb etməliyik ki, qayıtsın. Siz də bilirsiniz ki, oranın sakinləri indi harada məskunlaşıblar. Qonşu kəndlərdə yerləşiblər. Nədənsə dövlət səviyyəsində həllə o yer tələb olunmur. Yəqin ki, bu da olacaq. Deyərdim ki, Başkənd bölgənin açarıdır. Bu nadan hələ bu yerin qaytarılmasını istəyir. Bir tərəfdən Qarabağ idisə, digər tərəfdən Gədəbəy idi. Bu adam anlamır ki, Başkənd gedərsə, Şınığın 26 kəndi təhlükə altına düşəcək. Digər tərəfdən, biz gədəbəylilər üçün bu, təhqir olmazmı? Düşünürəm ki, onun çıxışına hakimiyyət səviyyəsində ən sərt reaksiya verilməlidir. Şəxsən mən özüm necə şəhid verdim, gözümün önündə kimləri itirmədim".

**Başkəndin alınmasında göstərdiyi rəşadətə görə 3 dəfə adı milli qəhrəman almağa təqdim olunsa da, həmin vaxt torpaqlarımız işğal altında olduğu üçün bu addan imtina edən, keçmiş döyüşçü, ehtiyatda olan mayor Əmrah Cabbarlı deputatlara xatırlatma kimi Başkəndin azad edildiyi tarixi zamandan danışıb:** "Bu, sadəcə, rüsvayçılıqdır. Özü də kimlər deyir. 1992-ci ildə Azərbaycan Televiziyası ilə çıxışım var. Orada Başkəndin ermənilərə verildiyi tarixdən danışmışam. 1929-cu ildə qəbul edilən qərarla kənd ermənilərə verilib. Bu barədə Azərbaycan dövlət orqanlarının heç birinin qərarı olmayıb. Elə bir qərar varsa, Anar İsgəndərov və Rasim Musabəyov mənə göstərsinlər. Azərbaycan Televiziyası ilə etdiyim çıxışı da göndərəcəm. İnternet resurslarında da bu çıxış var. Özümü diqqətə gətirməyi heç vaxt istəməmişəm. 2 dəfə o vaxt Gədəbəyin icra başçısı olan şəxs milli qəhrəman adının mənə təqdim olunması barədə sənədi imzalayıb. Bir dəfə də 544 Şınıx sakini imza ataraq prezidentə müraciət ediblər ki, həmin gecə Əmrah Cabbarlı Qaradağ yüksəkliyini saxlaya bilməsəydi, Şınıxda Xocalı faciəsi təkrar oluna bilərdi. Belə bir dövrlərdən keçib gəldik. İndi də Rasim kimilər çıxıb belə fikirlər irəli sürür. Hər iki deputatın bu fikirlərinə olduqca mənfi yanaşıram. Bu coğrafiyada Ermənistan adında dövlət olmayıb.

Azərbaycan Xalq Cümhuriyyətinin dövründə əlimizdə olan 114 min kvadrat kilometr əraziyə sahib çıxmağa çalışacağıq. Sadəcə, bu nadanların fikirləri insanı hiddətləndirməyə bilmir. Bolşeviklər dövründə 20 kvadrat kilometrdən çox ərazimiz Ermənistana verilib. İndi babası bolşevik olan Rasim kimilər belə deyəcək. Biz həmin ərazilərin geri qaytarılması üçün sona qədər mübarizə aparacağıq.

O vaxt da elə idi. Təsəvvür edin ki, o zaman Dadaş Rzayev korpus komandiri idi. Bir neçə dəfə bizə geri çəkilmək əmri vermişdi. Amma biz sona qədər dirəndik. Halbuki əmrə tabe olmama bəhanəsi ilə bizi güllələyə də bilərdilər. İndi onun ağlında olanların çıxıb belə danışmaları əslində təəccüblü deyil".

**Qazax bölgəsindən olan AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov isə məsələ ilə bağlı bunları dedi:** "Azərbaycanın tarixi ərazilərinin bərpası önəmli məsələdir. Bu ya hərb, ya da hərbi-diplomatik yolla olmalıdır. Başkənd bu xalqın qılınc haqqıdır. Onun azad edilməsi uğrunda şəhidlər verilib. Qazilər vardır. Ona görə Başkəndi heç kimə vermək olmaz. Qazağın da bütün kəndləri qayıtmalıdır. Birincisi, o bizim yurdumuzdur. İkincisi, Azərbaycan qalibdir. Güclüdür. Gücümüzdən indi yararlanmayıb nə zaman yararlanacağıq? Beynəlxalq hüquqa gəldikdə isə o hüquq Xocalıda, Bağanis Ayrım faciəsində bir ailənin yeddi üzvü ermənilər tərəfindən diri-diri yandırılanda, Srebrenitsada Hollanda sülhməramlılarının gözü qabağında bosniyalı müsəlmanlar qətl ediləndə, Qəzzada əlində çörək parçası ilə balaca körpələr Rəbbinə qovuşanda ölüb. Hətta Prezident İlham Əliyev belə son hadisə ilə bağlı suala cavab verərkən "Dəmir yumruq"dan danışır. İndi qan və əziyyətlə regionun ən qeyri-sabit məxluqlarından alınmış Başkəndi necə geri vermək olar? Bu fikirləri necə dilə gətirmək olar? Qazax da, Gədəbəy də Azərbaycanın Qərb qalalarıdır! Bu qalaların bürclərinin birinin çökməsi qalanın çökməsi deyilmi? Ümumiyyətlə, biz artıq bir şeyi görürük, güclü olacaqsan, milli olacaqsan, dininə, dilinə, irsinə dönəcəksən. Yanılmıramsa, bu deputat bir ara keçiddə popkorn satan uşaqla bağlı "milli fikir" irəli sürmüşdü. Sovet bizdə bir təbəqə formalaşdırdı. O təbəqə öz millətindən başqa hamını sevirdi. Qərbi Azərbaycandan soydaşlarımız qovulanda bəzi tiplər vardı, buradan gedən "bakinski ermənilər" və digərləri üçün nostalji duyurdu. Hətta bunu mahnılarda ifadə edirdilər. Onların "Biz" anlayışı bizdən deyil. Biz Türk dünyasındanıq, biriləri bizi sevməz, türklüyümüzü almaq istər. Biz İslam dünyasındanıq, biriləri bizi sevməz, bizi dinsiz görmək istər. Biz Qafqazın ürəyiyik, biriləri bizi sevməz, bizi Qafqazlılıqdan etmək istər. Hələ bizim dağlarımızda çoxlu qəbri məchul fədailər var. Onlara həsrət qalmış analar vardır. Bu məsələ ilə bağlı "ağıllı-ağıllı" da şərh verərdim. Amma duyğularına sahib olmayan millətin ağlı başqalarının xidmətində olar. Bir təklifim var. Azərbaycan dilində fikrini səlis ifadə etmək siyasi fəaliyyətdə şərt olsun. Çünki dil qəlbin ifadəsidir. Azərbaycan az qala Ermənistana təklif edir ki, "bala gəl qanadımın altına". Bizim də bəzi siyasilər deyir ki, Başkənd belə, Qazağın kəndləri belə. Azərbaycanın hər bölgəsi ürəkdir. Hər xalqı qardaşdır. Bununla belə, Azərbaycanın Qərbi Türklüyün nişanıdır. O nişandan daş qoparmaq olmaz".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Azərbaycanla Ermənistan arasında 35 sərhəd dirəyi quraşdırılıb




**Azərbaycanla Ermənistan arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında nəzərdə tutulan işlərin yarısından çoxu 2024-cü il aprelin 29-dək yerinə yetirilib, 35 sərhəd dirəyi quraşdırılıb.**

Musavat.com xəbər verir ki, bu barədə Azərbaycan baş nazirinin müavini Şahin Mustafayevin xidməti məlumat yayıb.

Qeyd olunub ki, hər iki dövlətin ekspert qruplarının işi davam edir.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 73 (8446) 30 aprel 2024



## Hakan Fidan Ər-Riyadda Blinkenlə görüşdü

**Türkiyə xarici işlər naziri Hakan Fidan ABŞ dövlət katibi Entoni Blinkenlə görüşüb.**

APA-nın Türkiyə müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə XİN məlumat yayıb. Görüş Ər-Riyadda baş tutub.

Qeyd edək ki, görüşdə Türkiyə-ABŞ münasibətləri, o cümlədən regional proseslər də müzakirə olunub.

# 44 günlük savaş qalibinə "44" kodlu sanksiya absurdu

## Konqres Avroparlamentin "əlavəsi"nə çevrilir?; "Murad Sadəddinov: "Azərbaycan preventiv tədbirlər görməlidir"



**Ötən cümə ABŞ qanunvericilərinin ikipartiyalı qrupu Azərbaycanın yüksək vəzifəli məmurlarına qarşı sanksiyaların tətbiqini nəzərdə tutan qanun layihəsini təqdim edib. Xəbər verildiyi kimi, təxribatçı sənədin müəllifləri erməni lobbisinə bağlı konqresmenlər Dina Titus və Qas Bilirakisdir.**

Dina Titus bu xüsusda deyib ki, "sanksiya tətbiqi üçün səbəb Dağlıq Qarabağda ermənilərə qarşı etnik təmizləmə və siyasi müxalifətə qarşı repressiyalardır" (əlbəttə ki, müxalifət məsələsi quru bəhanədir, əsas erməni maraqlarıdır).

Qeyd edək ki, bu, Azərbaycana qarşı sanksiyalar ehtiva edən ilk qanun layihəsidir. Sənədə Konqresin 21 üzvü də qoşulub. Onların, demək olar, hamısı antitürk, islamafob və ermənipərəstdir. "Turan"ın müxbiri sənədin sonrakı trayektoriyası baxımından prosedur sxemini açıqlayıb: qanun layihəsi Bayden administrasiyasından Qlobal Maqnitski Qanunu və ABŞ-ın digər qanunlarına uyğun olaraq 180 gün ərzində 44 məmura qarşı sanksiyalar barədə qərar qəbul etməyi tələb edəcək. "Qanun layihəsinin yekun variantında 41 yox, 44 azərbaycanlı məmur var. 41 məmurun adı daha öncə açıqlanıb, üç nəfərin adı hələlik məlum deyil".

44 vəzifəli şəxsin tam siyahısının bu həftə açıqlanacağı gözlənilir. Qanun layihəsinin yekun variantı Qarabağda müharibəyə də toxunur və Azərbaycan hakimiyyətini ermənilərin hüquqlarını pozmaqda ittiham edir. Yəni əslində layihənin ortaya çıxmasının tək səbəbi bu: Azərbaycanın Qarabağda apardığı antiterror tədbirlərindən sonra erməni lobbisinə və "xristian klubu"na bağlı Qərb quruluş, media və dövlətlərinin hərəkətə keçəcəyi gözlənilən idi. Gəlin indi aşağıdakı sitata baxaq və qiymətimizi verək: "Azərbaycan hökuməti hərbi əsirlərin hamısını azad etməyib və yeni hərbi əsirləri və mülki şəxsləri saxlamağa davam edir. Buna cavabdeh olanlar hüquqi məsuliyyət daşıyanlardır".

"Erməni hərbi əsirlər və mülki şəxslər" deyəndə əlbəttə ki, cinayət törətmiş erməni diversantlar və suveren ərazimiz olan Qarabağda Azərbaycan dövlətinə uzun illər meydan oxumuş Ruben Vardanyan başda olmaqla, məhkəməsi gözlənilən separatçı-canilər və xuntaçılar nəzərdə tutulur.

Müəlliflər daha sonra fikri əsas məzmundan yayındırmaq üçün daxili siyasi amilləri də qeyd edirlər. İddialara görə, siyahıda Prezident Administrasiyası, Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Sərhəd Xidməti, Penitensiar Xidmət üzvlərinin, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimlərinin və digər dövlət məmurlarının adları var.

Qeyd edək ki, bu ərəfədə Avropa Parlamenti insan haqları bəhanəsi ilə Azərbaycan əleyhinə növbəti sənəd qəbul edib.

Bəs baş verənlər Qərbin Azərbaycana münasibətdə hansısa ortaq taktikasından xəbər vermir ki? Sanki erməni lobbisi ilə birləşib sözü bir yerə qoymuş kimi görünürlər. ABŞ Konqresi də eyni yanlışı təkrarlayarmı? Təkrarlayarsa, Bayden sənədi imzalayarmı? Ön tədbirlərimiz nə olmalıdır?

**Politoloq Murad Sadəddinov "Yeni Müsavat"a bildirdi ki, Avropa Parlamentinin qətnaməsi ilə ABŞ-dakı bir qrup konqresmenin hazırladığı qanun layihəsinin Qərbin Azərbaycana qarşı vahid taktikasının olduğu inandırıcı deyil:** "Anti-Azərbaycan qətnaməsinin və qanun layihəsinin hazırlanmasında erməni lobbisi və onların əlaltısı olan deputatlar, konqresmenlər iştirak ediblər. Yəni bu addımların atılmasına daha çox ermənilər və ermənilərə bağlı olan qüvvələrin Azərbaycan düşmənçiliyi amilləri öz təsirini göstərir. Xüsusilə də ABŞ-da sanksiyalar təşəbbüsü ilə çıxış eləyən konqresmenlərin kimliyinə diqqət etdikdə dediklərimizin nə dərəcədə əsaslı olduğunu görərik. Həmin konqresmenlər uzun illərdir qatı ermənipərəst şəxslər kimi tanınırlar. O layihənin əsas təşəbbüskarı konqresmen Dina Titus uzun müddətdir erməni diasporu ilə açıq-aşkar əməkdaşlıq edir. O, dəfələrlə Qarabağda keçən ilə qədər qanunsuz fəaliyyət göstərən separatçı rejimin başçıları ilə görüşlər keçirib, onlara dəstək verib. Dina Titus Ruben Vardanyanla da görüşüb. İndi də görünür onu Azərbaycana qarşı Vardanyanın pulları qısqırdır. Yəni bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın vəzifəli şəxslərinə qarşı sanksiyanı nəzərdə tutan qanun layihəsinin arxasında Amerika dövləti dayanmayıb. Siyahıdakı 44 nəfərin içərisində 44 günlük müharibədə Azərbaycan Silahlı Qüvvələrinə rəhbərlik eləmiş şəxslərin də adları var. Bu nüans da bir daha sübut edir ki, erməni diasporu bizdən qisas almaq istəyir. Siyahıda məhz 44 nəfərin adının olması da 44 günlük müharibəyə mesajdır. Ermənilər öz aləmlərində bizdən bu şəkildə qisas aldıqlarını düşünürlər.

Azərbaycan tərəfi bu cür cəhdlərin qarşısını almaq üçün preventiv tədbirlər görməlidir. ABŞ hökuməti ilə, Dövlət Departamenti ilə, Konqreslə iş aparılmalıdır. Ermənipərəst konqresmenlərin sifarişli və absurd qanun layihəsi təqdim etdikləri sübuta yetirilməlidir. Ciddi iş aparılsa, qondarma qanun layihəsi Konqresdə qəbul edilməyə də bilər. Hətta qəbul edilsə belə, sonda ABŞ prezidenti tərəfindən imzalanmaz. Risklərin qarşısının alınması üçün Azərbaycanın əlində imkanlar var".

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə qeyd etdi ki, bu bədnam, absurd layihənin təşkilatçılarının da, onlara dəstək verənlərin də kimliyini Azərbaycan bilir. Həmin şəxslər daim erməni lobbisinin təsiri altında fəaliyyət göstərən, erməni lobbisinin pullarından qidalanan konqresmenlərdir. Cəmi 21 nəfər konqresmen bu qanun layihəsinin təqdim edilməsinə qoşulub:** "Nəzərə alsaq ki, Konqresin üzvlərinin sayı bu rəqəmdən təxminən 30 dəfə çoxdur, o baxımdan hesab edirəm, həmin qanun layihəsinin Konqresdə keçməsi o qədər də, rahat olmayacaq. Əgər hətta Konqres səs verib onu qəbul edəcəksə, növbəti mərhələdə ABŞ prezidentinə təqdim olunacaq və qanuna görə, 180 gün müddətində Prezident qanun layihəsini ya imzalamalıdır, ya da imzalamaqdan imtina etməlidir. Mən hesab və ümid edirəm ki, qanun layihəsi Konqres tərəfindən dəstəklənməyəcək və heç Prezidentə qədər gedib çıxmayacaq".

**Hüquq müdafiəçisi xatırlatdı ki, layihədə adı qeyd olunan Azərbaycanın vəzifəli şəxslərinin bir qrupu Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsində sücaət göstərmiş, üzərlərinə düşən vəzifəni çox yüksək səviyyədə yerinə yetirmiş, rəhbərlik etdikləri qurumların fəaliyyətini hərbi əməliyyatlar dövründə çox yüksək səviyyədə təmin etmiş şəxslərdir:** "Azərbaycan ictimaiyyəti onlarla qürur duyur. Onlar torpaqlarımızın işğaldan azad edilməsi kimi müqəddəs işdə Prezidentin yanında olublar və bizim üçün qəhrəmandırlar. Ona görə də dünya erməniçiliyi, erməni lobbisi həmin qəhrəman azərbaycanlıları hədəfə alıb. Bu adamların adlarının qeyd olunduğu bir layihə quraşdırıb Konqresə qəbul üçün təqdim edilməsi absurddur. Vəzifəsindən irəli gələn fəaliyyəti həyata keçirən, heç bir beynəlxalq və yerli qanunları pozmayan şəxslərə qarşı sanksiya tətbiq olunması tələbinin irəli sürülməsi absurddur və heç bir fakta, hüquqa söykənmir. Ona görə də özünə hörmət edən, qanunlara hörmət edən heç bir qurum, o cümlədən Konqres o cür absurd iddiaların əksini tapdığı layihəni qanun kimi qəbul etməz".

❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"

Yeni MÜSAVAT
N 73 (8446) 30 aprel 2024

**"İrəvan Bakıdan sülh müqaviləsi ilə bağlı növbəti təkliflər alıb". Bunu ötən həftəsonu Ermənistan XİN-in sözçüsü Ani Badalyan bildirib. Onun sözlərinə görə, bu, sülh müqaviləsi layihəsi ilə bağlı 9-cu təklif paketidir.**

# Bakının İrəvana 9-cu məktubu - sülh yazışması nə vaxt bitəcək...

## Ermənistan rəhbərliyinin iradəsizliyi revanşistlərin hərəkətə keçməsinə imkan yaradır; zaman Paşinyan hakimiyyətinin əleyhinə işləyir...

Yeri gəlmişkən, keçən həftə Azərbaycan Prezidenti İlham Əliyev Bakıda, COP29-a həsr olunmuş beynəlxalq forumda çıxışı zamanı deyib ki, COP29-dan əvvəl (noyabr, 2024) Azərbaycanla Ermənistan arasında sazişə nail olmaq, ən azı baza prinsipləri üzrə razılığa gəlmək tam real görünür. Dövlət başçısına görə, baza prinsipləri üzərində razılığa gəlmək, həmçinin variant hesab olunur, sonra isə müddəaların təfərrüatlarına vaxt sərf etmək olar. "Hətta sazişin layihəsi hazır ola bilər. Düşünürəm ki, bunun üçün hər iki tərəf, sadəcə, ürəkdən çalışmalıdır", - deyə Prezident diqqətə çatdırıb. Azərbaycan rəhbəri həmçinin sülh sənədinə "Dağlıq Qarabağ"la bağlı hər hansı qeydin salınmayacağı haqda İrəvanla razılığa gəlindiyini söyləyib. Yerdə nə qaldı? "Biz Ermənistan hökumətinin sözdən əmələ keçməsini



gözləyirik", - bunu da İlham Əliyev vurğulayıb və əlavə edib ki, İrəvan sülh sənədinədək öz konstitusiyasından Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları ilə bağlı bəndləri çıxarmalıdır. Azərbaycan lideri sülh sənədi ilə bağlı oxşar fikri Almaniyaya son səfəri zamanı da təkrarlayıb. Maraqlıdır ki, səfər zamanı Almaniya kansleri Olaf Şoltş da İlham Əliyevlə keçirdiyi mətbuat konfransında 2024-cü ildə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının mümkün olduğunu deyib. Təbii ki, Qərbin sözü ilə əməli düz gəlsə.

Bu arada rəsmi Astananın ev sahibliyi ilə növbəti görüşün keçiriləcəyi bəlli olub. Məlumata görə, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almatıda görüşəcək. Musavat.com erməni mediasına istinadən bildirir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan məlumat verib. "Xəbər verdiyimiz kimi, Qazaxıstan tərəfinin təklifi ilə Ermənistan və Azərbaycan nazirləri arasında görüş barədə razılaşma var. Onun Almatıda keçirilməsi razılaşdırılıb" - Badalyan deyib. Görüşün hansı nəticə verəcəyini isə indidən demək çətindir. Ermənistandakı revanşistlərin yenidən hərəkətlənməsi ümidverici proqnozların qarşısını alır. Görünən budur ki, Ermənistan rəhbərliyinin iradəsizliyi revanşistlərin hərəkətə keçməsinə imkan yaradır və zaman Paşinyan hakimiyyətinin əleyhinə işləyir.

"Biz xəyali, real olmayan sərhədlərdən imtina etməli, xəyali Ermənistandan real Ermənistana keçid etməliyik. Əks halda, xəyali Ermənistana görə real Ermənistanı da itirə bilərik". Bunu isə Nikol Paşinyan öz soydaşlarına müraciətində bildirib. Elə isə Ermənistan niyə sözdən əmələ keçmir, sülh müqaviləsi imzalamağa tələsmir? Bəs tərəflər arasında neçə ildir davam edən məktub mübadiləsi, sülh yazışması nə vaxt sona çatacaq? Hazırda Bakı və İrəvan yazılı sülh anlaşmasına doğru yolun harasındadır?

**Siyasi şərhçi Elçin Mirzəbəyli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanla Ermənistan arasındakı sülh heç vaxt indiki qədər real olmayıb:** "Qazağın eksklav olmayan kəndlərinin işğalına son qoyulması, delimitasiya prosesinin başladılması və hətta razılaşdırılmış sərhəd xəttinin demarkasiya olunması istiqamətində ciddi irəliləyişlərin əldə olunması, bu reallığın nəticəyə varacağına olan ümidləri daha da artırıb. Bununla yanaşı, sülh müqaviləsinin reallaşmasına maneə yaradan bir sıra Ermənistan daxili və xarici faktorlar var. Bunlardan birincisi Ermənistan konstitusiyasında müstəqillik bəyannaməsinə istinad olunması və həmin istinadda Azərbaycan ərazilərinin beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də Nikol Paşinyanın davamlı olaraq, istinad etdiyi Almatı Bəyannaməsinə zidd olaraq, Ermənistana birləşdirilməsi haqqında məqamın yer almasıdır. Ermənistanın müstəqillik bəyannaməsinin preambula hissəsində Ermənistan Ali Sovetinin və "Dağlıq Qarabağ"ın milli şurasının" "Dağlıq Qarabağ"ın "Ermənistan SSR-ə birləşdirilməsi" haqqında "birgə qərarı"na istinad olunur. Bu isə şübhəsiz ki, Azərbaycan torpaqlarının ilhaqı, həm indiki Ermənistan, həm də artıq işğaldan azad etdiyimiz ərazilərdə Ermənistan dövlətinin formalaşdırılması niyyətinin vurğulanması deməkdir. Onu da qeyd edim ki, Ermənistan Ali Sovetinin və "Dağlıq Qarabağ"ın "milli şurası" adlanan qondarma tərəfinin 1 dekabr 1989-cu il tarixli "qərarı" həmin dövrdə mövcud olan SSRİ konstitusiyasına zidd olduğu üçün yuxarı orqan - SSRİ Ali Soveti tərəfindən ləğv edilib. Bu baxımdan, Ermənistanın müstəqillik bəyannaməsində yer alan iddiaların, hətta hüquqa zidd olsalar da belə, ləğv olunduqları üçün faktoloji əsası yoxdur".

**E.Mirzəbəylinin sözlərinə görə, indiki halda, qanuni və faktoloji əsasları olmayan ərazi iddialarının tamamilə aradan qaldırılması ilk növbədə Ermənistanın özünə lazımdır:** "Çünki beynəlxalq hüququn müstəqil subyekti olan bir dövlət heç bir halda BMT Nizamnaməsinin müddəalarına zidd olan iddialarla çıxış edə bilməz. BMT Nizamnaməsinin 2 maddəsinin 4-cü bəndində qeyd olunur ki, "Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri beynəlxalq münasibətlərində hər hansı dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı və ya Birləşmiş Millətlər Təşkilatının Məqsədlərinə uyğun olmayan hər hansı digər şəkildə güc tətbiq etmək hədəsindən və ya güc tətbiqindən çəkinməlidirlər". Ermənistanın müstəqillik bəyannaməsində yer alan ərazi iddiaları və Ermənistan konstitusiyasında bu müstəqillik bəyannaməsindəki "hədəflərə" istinad olunması Azərbaycan ərazilərinin işğalını və ilhaqını nəzərdə tutan güc tətbiq etmək hədəsidir. Ermənistanın müstəqillik bəyannaməsində yer alan bu qanunsuz iddiaların aradan qaldırılması üçün isə rəsmi İrəvanın iddia etdiyi kimi, mövcud konstitusiyaya əlavə və dəyişiklik edilməsi, yaxud yeni konstitusiyanın qəbulu məqsədilə referendum keçirməsinə ehtiyac yoxdur. Özünü həm də Ermənistan SSR-nin hüquqi varisi elan edən Ermənistan Respublikasının parlamenti bəyannamədən ərazi iddiaları ilə bağlı məqamları, onların Ermənistan Respublikasının beynəlxalq öhdəliklərinə zidd olduğunu əsas gətirərək çıxarmaqla bu problemi aradan qaldıra bilər. Bunun üçün Ermənistan parlamentində, hətta 3/5 səs çoxluğunun əldə olunmasına da ehtiyac qalmır. Ermənistan konstitusiyasında qeyd olunur ki, "Parlamentin reqlamenti, Seçki Məcəlləsi, Məhkəmə-Hüquq Məcəlləsi, Konstitusiya Məhkəməsi, Referendum, Partiyalar və insan hüquqlarının müdafiəsi haqqında qanunlar konstitusiya qanunları olduğu üçün deputatların ümumi sayının ən azı 3/5 hissəsinin səsi ilə qəbul olunur". Bu, o deməkdir ki, Ermənistanın müstəqillik bəyannaməsinə konstitusiya aktı olmadığı üçün sadə səs çoxluğu ilə əlavə və dəyişikliklər edilə bilər. Sülh müqaviləsinə maneə yaradan ikinci daxili amil Ermənistandakı müharibə cinayətkarları və separatçılardan ibarət qruplaşmaların siyasi hakimiyyətin dəyişdirilməsi istiqamətində atacaqları addımlardır. Mövcud şəraitdə onların ciddi təsir imkanlarına malik olduğunu düşünmürəm. Xarici faktorlar isə həm regionda ənənəvi təsir imkanlarını qoruyub saxlamağa və bu məqsəd üçün Ermənistanın daxilindəki revanşçı qüvvələrdən yararlanmağa çalışan tərəflə, həm də bölgəyə Ermənistan vasutəsilə nüfuz etməyə cəhd göstərən qütblə bağlıdır. Bu prosesdə isə hələlik müəyyən bir balansın olduğu nəzərə çarpır. Bütövlükdə, proses indiki dinamika ilə inkişaf edərsə, cənab Prezidentin qeyd etdiyi kimi, noyabra qədər yekun nəticənin əldə edilməsi ehtimalı böyükdür".

**MCP başqanının müavini, politoloq Məhəmməd Əsədullazadə də bu fikirdədir ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması üçün münbit siyasi ortam var:** "İki ölkə arasında vasitəçisiz danışıqlar gedir. Bu, Azərbaycanın təklifidir. Azərbaycan Almatı Bəyannaməsi ilə razılaşdı. Dörd kənd danışıqlarla verildi. Azərbaycan Zəngəzur dəhlizi ilə bağlı mümkün danışıqlara da hazırdır. Bu mənada Ermənistanın bəhanəsi qalmayıb. Azərbaycan və Ermənistan xarici işlər nazirləri Almatıda görüşəcək. Azərbaycan növbəti dəfə sülh təkliflərini verib. Tərəflər ikitərəfli sülh təkliflərini verməklə müəyyən etimad formalaşmasına gətirib çıxarır. Cənab Prezident İlham Əliyev prosesi uğurla davam etdirir. Qazaxıstanda danışıqlarda baza sənədinin imzalanması müzakirə edilə bilər". **M.Əsədullazadə ümid edir ki, COP29-a kimi bu çərçivə sazişi imzalana bilər:** "35 sərhəd direyi razılaşdırılıb. Bu, çox uğurludur. Qərb də buna dəstək verib. Sadəcə, Ermənistan tərəfi sülh müqaviləsində qarant ölkə olmasını istəyir. Azərbaycan buna ehtiyac olmadığını vurğulayıb. ABŞ burada maraqlıdır. Amma buna getmək lazım deyil. Sənəd iki ölkə arasında bağlanır. Ermənistan tərəfi konstitusiyanı dəyişməlidir. Vaxtı uzatmaq Ermənistanın əleyhinə işləyir. Ortada ciddi problem yoxdur baza sənədinin imzalanmasında. Ermənistan qarşıdakı aylarda referenduma gedib, yeni konstitusiya qəbul edərək Qarabağ və digər ərazi iddialarından geri çəkiləndən sonra sülh müqaviləsi bağlana bilər. Təbii ki, bu da gələn ilin əvvəllərində reallaşa bilər". **Ekspert bildirdi ki, Ermənistanın baş naziri Nikol Paşinyan qarant ölkə məsələsinə son qoymalıdır:** "İlk öncə konstitusiya dəyişməlidir, Zəngəzur yolu açılmalıdır! Həmçinin anklav kəndlərlə bağlı real mövqe ortaya qoymalıdır. Cənab Prezident Ermənistana mesaj verdi ki, sözdən əmələ keçmək lazımdır. Ermənistan hakimiyyəti bundan nəticə çıxarmalıdır".

❏ **E.PAŞASOY, "Yeni Müsavat"**



## Rəsmi Astana: "Danışıqlarda Qazaxıstanın vasitəçiliyindən söhbət getmir"

**Almatıda keçiriləcək danışıqlar sırf olaraq Azərbaycan və Ermənistan arasında aparılacaq, Astananın vasitəçiliyindən söhbət getmir. APA xəbər verir ki, bu barədə Qazaxıstan Xarici İşlər Nazirliyinin rəsmisi Aybek Smayidarov gözlənilən görüşün təfərrüatları barədə açıqlamasında deyib.**

XİN rəsmisi bildirib ki, Qazaxıstan xoşməramlı xidmətlər, yeni danışıqlar üçün platforma təqdim edəcək.

"Əgər bu iki ölkə sülhə gəlsə və bu, bizim ərazimizdə imzalansa, bunun bütün region üçün böyük müsbət təsiri

YENİ MÜSAVAT
N 73 (8446) 30 aprel 2024



# Su çənində qalan qaraçuxurlu üçün mükafat

Zamin HACI
zaminhaci@gmail.com

**2024-cü ildə Dövlət Mükafatına təqdim edilən işlərin siyahısı keçən həftə açıqlandı. Sonra Nazirlər Kabineti yazmışdır ki, işləri təqdim edən idarələr bunların xalq arasında müzakirəsini keçirməlidir. Lakin belə müzakirələr varmı, yoxmu, uca xalqımız xəbərsizdir. Pul isə heç az deyil, yanılmıramsa, Dövlət Mükafatı hazırda 40 min manatdır. Maşın almaq olar. O baxımdan mən müzakirəni açıq elan edirəm.**

Mükafatlıq işlərin siyahısında birinci yerdə, daha doğrusu, sırada "Atom-hidrogen energetikasında termo və radiasion-heterogen proseslər" göstərilmişdi, dalıyca da bunun Rusiyada nəşr olunmuş monoqrafiya olması yazılmışdı. Düzdür, alim azərbaycanlıdır, akademik Adil Qəribovdur. Ancaq Rusiyada çıxan kitaba biz niyə dövlət mükafatı veririk, anlamadım. Üstəlik, kitabın müəllifinin internetdəki bioqrafiyasına (guya "tərcümeyi-hal" yazanda bizim ana dilimizdə olur?) baxanda açıq görünür ki, adam bunu 2011-ci ildə ingilis dilində də çap edibdir. Yəni yeni bir şey olmasına iddia edə bilməz.

Lakin lap hesab edək yenidir. Azərbaycanda nə atom energetikası var, nə hidrogen. Enerjimizi mazut və qaz yandırılan, ekologiyanın nənəsini ağladan arxaik İstilik Elektrik Stansiyaları təmin edir. Əsasən. Cüzi hissədə su elektrik stansiyalarının payına düşür və mikroskopik də külək-Günəş batareyalarımız vardır. Xızı-Quba tərəflərə gedərkən, yol qırağında o yel dəyirmanlarının iri pərlərini fırlanan görəndə Beşbarmaq dağına nəzir deyirik. Bəs bu atom-hidrogen prosesləri bizim haramıza yaraşır? Qədim ata sözünə əməl etməkdirmi: "Qoy desinlər Qasıməlinin çustu var, Kim nə bilir altı yoxdur, üstü var"?

Əlbəttə, siyahıda elə adlar və işlər vardı ki, bəlkə onların yanında Adil müəllimə Nobel də düşürdü. Məsələn, Ziyad Səmədzadə. "XX əsrdə və müstəqillik dövründə Azərbaycan iqtisadiyyatı və onun inkişafının aktual problemləri"- silsilə əsərlər"inə görə mükafata təqdim edilib. 2024-də yaşayırıq, Ziyad müəllim hələ də hesab edir ki, 20-ci əsrdə, misal üçün, Lerikdə kolxoz quruculuğu problemləri aktualdır.

Bugünlərdə Qaraçuxur tərəfdə (yerin adı da hadisə ilə səsləşir) bir nəfər su çəninə girmişdi, orfda təpəsi üstə, daha doğrusu, başı aşağı qalmışdı. Fövqəladə halları çağırdılar, gəlib çənin ağzını kəsdilər, kişi durdu çıxdı getdi işinin dalıyca. Yəqin xəbərlərdə o tragikomik videonu görmüsünüz.

Halbuki mən 5 dəqiqə o vəziyyətdə qalsam, ürəyim partlayardı. Hələ adamın başına, beyninə qan yığılmaq ehtimalından danışmıram. Ancaq belə adamlarımız vardır! Mətanətlə hər şeyə dözürlər, lazım gəlsə baş üstündə dayanırlar. Hansısa siyasətçi başı üstdə dayananda jurnalistlər üçün xəbər olur, bəs sadə xalqı niyə işıqlandırmırıq?

Mən su idarəsinin yerində olsam həmin vətəndaşı dövlət mükafatına təqdim edərdim. Bəlkə aldığı pulla yeni, ağzı daha geniş su çəni də ala bilərdi. Yoxsa atom belə getdi, hidrogen belə gəldi... Bizdə su çəni problemi aktualdır.

1934-cü ilin ədəbiyyat üzrə Nobel mükafatını alan italiyalı yazıçı var: Luici Pirandello. Yəqin onun adı uca millətimizə heç zad demir. Lakin Pirandellonun yaradıcılığından bir əsərin ekranlaşdırılmasını çoxunuz görmüsünüz. Bu, Gürcüstan kinosuna məxsus "Küp" filmidir, 1971-ci ildə çəkilib. Həmin filmdə şərab küpü sınırdı, usta çağırırdılar, usta küpü qayırırdı, lakin qırıqları içəridən yapışdırdığı üçün axırda elə küpün içərisində qalırdı. Bax, həmin qısametrajlı film Pirandellonun "Küp" novellası əsasında çəkilib.

Bunu ona görə xatırlatdım ki, dövlət mükafatına təqdim edilən yoldaşlardan biri də rejissor Vaqif Mustafayevdir. Ancaq həmin film su çənində qalan qaraçuxurlunu işıqlandırmır.



# Qərb Zəngəzur dəhlizinin açılmasını istəyirmi - İngilis səfirin Naxçıvana qəfil səfəri...

## Erməni analitiklərə görə, dörd kəndin təhvil verilməsi və sərhəddəki son gəlişmələr Türk dəhlizinin açılmasını asanlaşdırır - bəs azərbaycanlı mütəxəssislər nə düşünür?

**Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası yönündə ilk ciddi irəliləyiş, 4 kəndimizin geri verilməsi haqda anlaşma iki ölkə arasında sülh sənədi və kommunikasiyaların açılması yönündə ümidləri artırıb. Söhbət təbii ki, həm də Zəngəzur dəhlizindən gedir.**

"Türk dəhlizinin (Zəngəzur - red.) açılması prosesi sürətləndirilib". "Yeni Müsavat" bildirir ki, bunu erməni politoloq Varujan Qeqamyan bildirib. O, Türkiyədən məsələ ilə bağlı verilən son açıqlamaya da diqqət çəkərək deyib: "Türkiyənin nəqliyyat naziri Abdulkadir Uraloğlu bildirib ki, Zəngəzur dəhlizi ilə bağlı Ermənistandan mahiyyətcə heç bir müqavimət yoxdur, üstəlik, bu yaxınlarda Tiflisdə türkiyəli nazir müavininin də iştirak etdiyi görüş çərçivəsində bu mövzuda Ermənistan-Türkiyə müzakirəsi aparılıb".

**Qeqamyan artıq Ankara və İrəvanın bu mövzuda anlaşdığını istisna etmir:** "Dörd kəndin təhvil verilməsi və sərhəddəki son gəlişmələr Sünikdən (Qərbi Zəngəzur - red.) keçməklə Türk dəhlizinin açılması tələbinin yerinə yetirilməsini asanlaşdırır və sürətləndirir". Sözsüz ki, Zəngəzur dəhlizinin açılması ilə həm də "Turan yolu" tamamlanmış olacaq və Türk dünyası Azərbaycan üzərindən yeni, möhtəşəm bir güc qazanacaq ki, bu da qonşu İranla yanaşı, Fransa başda olmaqla, Qərbdəki bəzi anti-Türk çevrələri narahat edir. Bəs konkret olaraq, kollektiv Qərbin aparıcı dövləti kimi ABŞ və onun təbii müttəfiqi Böyük Britaniya Zəngəzur dəhlizinin açılmasını istəyirmi? Hansı şərtlərlə?

Qeyd edək ki, Rusiya 10 noyabr (2020) sənədinin 9-cu bəndinə əsasən yolun FTX (FSB) hərbçilərinin kontrolunda olması haqda bəndin reallaşmasının tərəfdarıdır. Ermənistan buna qarşıdır və yola özünün nəzarət edəcəyini bildirir. Rəsmi Bakı isə haqlı olaraq və beynəlxalq təcrübədən çıxış edərək, Azərbaycandan Azərbaycana (Naxçıvana) keçidin təhlükəsizliyi ilə yanaşı, maneəsiz rejimdə olmasını tələb edir. Maraqlıdır ki, ötən həftəsonu Britaniyanın Bakıdakı səfiri Fergus Auld Naxçıvana səfər edib. Bu dəhlizin açılması Londonun da maraqlarına uyğundur. "Bəli, "Zəngəzur dəhlizi" sözü orada qeyd olunmayıb. Lakin yazılıb ki, Azərbaycanın şərq hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında yol əlaqəsi olmalıdır və Rusiyanın sərhəd qüvvələri nəzarəti təmin etməlidir. Bu, Prezident Putin, baş nazir Paşinyan və mənim tərəfimdən imzalanıb. İndi isə üç ildən çoxdur ki, Ermənistan bu müddəanı əslində pozur". Bu sözləri Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində təşkil olunan "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda çıxışında deyib. "İndi isə onlar, belə demək olarsa, həmin müddəanı aradan qaldırmaq istəyirlər. Lakin bu, mümkün deyil. Onlar Naxçıvan Muxtar Respublikası ilə yol əlaqəsini qurmaq imkanını bloklayır. Bu cür münasibət, təbii ki, çox məyus edir", - deyə Prezident İlham Əliyev bildirib.

**Professor Qabil Hüseynli** "Yeni Müsavat"a qeyd etdi ki, Ermənistanla Azərbaycan arasında sülhyaratma prosesi finişə çatmaqdadır. Q.Hüseynli vurğuladı ki, sülh sazişinin imzalanmasının tezliklə baş tutacağını gözləmək olar. Onun sözlərinə görə, üstəlik, delimitasiya prosesi qaytarılan 4 kənddən sonra həmin ərazilərdə başladı: "Bu da təsdiq edir ki, artıq Ermənistan-Azərbaycan arasında sülhyaratma parametrlərinə aid bütün razılaşmalar var. Eyni zamanda ABŞ dövlət katibi Entoni Blinken həm Paşinyana, həm Əliyevə telefon zəngi edib. Ümid edirəm ki, danışıqlarda sülh prosesinin sürətlənməsindən razılıq edilib və müzakirələrin daha da irəliyə aparılması ifadə olunub. Ermənistanda bir qrup adamın etiraz aksiyası keçirməsini nəzərə almasaq, iki ölkə arasında sülh prosesinin irəliləyişdə olduğunu söyləmək mümkündür. Və deyilənlərə görə, COP29 konfransına qədər sülh sənədinin imzalanması, bəzi kommunikasiya xətlərinin açılması gözlənilir". **Q.Hüseynlinin fikrincə, beləliklə, demək olar ki, sülhyaratma prosesi normal gedir, İrəvanda bəzi boşboğazların ara qarışdırmasına baxmayaraq, tərəflər arasında etimad mühiti yaranmaqdadır:** "Bu nöqteyi-nəzərdən ən prinsipial məsələlərin reallaşması böyük vaxt almayacaq. Bunu 4 kəndin qaytarılması sübut etdi".

**Siyasi şərhçi Aqşin Kərimova görə, delimitasiya prosesi təkcə ikitərəfli münasibətlərə deyil, ümumilikdə regional əlaqələrin dinamikasına müsbət təsir göstərir. Onun fikrincə, prosesin ən böyük zirvəsi Zəngəzur dəhlizi layihəsi çərçivəsində fəth olunmaq potensialına malikdir:** "Hərçənd ki, dəhliz konteksti ilə delimitasiya prosesi ayrı paketdə olan müzakirə mövzuları kimi görünür. Azərbaycan hazırda Naxçıvan Muxtar Respublikası ilə quru əlaqəsi yaradılması üçün dəhliz məntiqini gündəlikdən çıxarmayıb. Birincisi, ona görə ki, "Zəngəzur dosyesi" Azərbaycanın strateji hədəfidir. İkincisi, bu layihə qlobal və regional alternativ tədarük nəfəslikləri deməkdir ki, bu da bir çox oyunçunun marağındadır. Bununla belə, Azərbaycan dəhliz üçün lazım olan tələblərini indi daha diplomatik dildə ifadə etməyi məqsədəuyğun hesab edir".

**Ekspert hesab edir ki, Prezident İlham Əliyevin aprelin 23-də ADA Universitetində təşkil olunan "COP29 və Azərbaycan üçün yaşıl baxış" mövzusunda beynəlxalq forumda çıxışında həmin ştrixləri görmək mümkündür:** "Əliyev deyir ki, Ermənistanın Naxçıvan Muxtar Respublikası ilə yol əlaqəsini qurmaq imkanını bloklaması məyusedicidir. Bununla Prezident Əliyev üç mesaj verir: birincisi, Naxçıvanın blokadada qalması ilə bağlı Ermənistanın ambisiyalarını dünya ictimaiyyətinə çatdırır, ikincisi, Ermənistanın sülh gündəliyindəki nisbi konstruktiv mövqelərinin əvəzində ritorikası ilə yeni gediş edir, üçüncüsü, Əliyev Ermənistanın 10 noyabr bəyanatının müvafiq bəndindən yayınmasını göstərərək gediş edir və prosesi Moskva-İrəvan qarşılıqlı öhdəliyi kontekstində vurğulayır". **Təhlilçi nəticə olaraq belə güman edir ki, delimitasiya prosesinin başlanması Zəngəzur dəhlizi layihəsi ilə bağlı açıq qalan məsələlərin həllini aktuallaşdırır:** "Azərbaycan Ermənistanın konstruktiv mövqe nümayiş etdirəcəyi təqdirdə ritorikasına redaktə edərək İrəvana xilas yolu olduğunu göstərir".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT N 73 (8446) 30 aprel 2024

# Blinkenin Əliyevə zənginin sirri - Vaşinqtonun təşəkkürü və...

## ABŞ-ın baş diplomatı Ermənistanla Azərbaycan arasında əldə olunmuş razılaşmaları təqdir edib, amma..; Asim Mollazadə: "Birləşmiş Ştatlar və Fransa erməni diasporunun təzyiqi altındadır"

**ABŞ-Azərbaycan münasibətlərində yeni səhifə aprelin 28-də dövlət katibi Entoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevə zəngi oldu. "Yeni Müsavat" xəbər verir ki, Blinken ilk növbədə Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası sahəsində əldə olunmuş razılaşma ilə bağlı təbriklərini çatdırıb, bunun ABŞ tərəfindən təqdir edildiyini vurğulayıb.**




Dövlət katibi ABŞ-ın Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin irəli aparılması üçün bundan sonra da dəstək göstərməyə hazır olduğunu bildirib. Dövlət başçısı iki ölkənin delimitasiya komissiyası tərəfindən əldə olunmuş razılaşmanın ikitərəfli əsasda aparılmış dialoq və qarşılıqlı anlaşma şəraitində keçirilmiş müzakirələrin nəticəsi olduğunu qeyd edib. Prezident delimitasiya prosesinin ardınca iki ölkənin sərhədində artıq demarkasiya işlərinin başlanmasının da müsbət bir addım olduğunu vurğulayıb.

Dövlət başçısı sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi üçün Qazaxıstan tərəfinin təklifinə uyğun olaraq tezliklə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Almatıda görüşəcəklərini bildirib. Sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarının Azərbaycan olduğunu xatırladan Prezident ölkəmizin sülh gündəliyinin bundan sonra da davam etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb və Azərbaycanın bu xüsusda qəti siyasi iradəyə malik olduğunu qeyd edib. Dövlət başçısı bildirib ki, Azərbaycan regionda hər hansı ayırıcı xətlər olmadan inteqrasiya olunmuş Cənubi Qafqaz regional əməkdaşlıq modelinin qurulmasını dəstəkləyir.

Dövlət katibi Entoni Blinken ABŞ-la Azərbaycan arasında ikitərəfli əlaqələrin gücləndirilməsi üçün ölkəsinin niyyətini ifadə edərək enerji, iqlim, nəqliyyat, COP29 sahələrində əməkdaşlıq məsələlərini qeyd edib. Dövlət başçısı da öz növbəsində Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu vurğulayıb. Telefon söhbəti zamanı COP29 çərçivəsində Azərbaycan və ABŞ nümayəndə heyətləri arasında əməkdaşlıqdan məmnunluq ifadə olunub. Blinken son zamanlarda Azərbaycanda insan haqları ilə bağlı atılmış addımları müsbət qiymətləndirərək, bunun davamlı olması ilə əlaqədar arzusunu ifadə edib. Prezident Azərbaycanın insan hüquqları sahəsində öhdəliklərinə sadiq olduğunu və ölkəmizdə demokratik islahatların davam etdirildiyini diqqətə çatdırıb.

Belə bir ərəfədə ABŞ xarici işlər nazirinin zəngi kifayət qədər yerinə düşüb. Ümumiyyətlə, Blinken Vaşinqton-Bakı münasibətlərində əlahiddə körpü rolu oynamaqdadır. Bundan əvvəl də əlaqələrdə gərginlik yarananda Blinken Əliyevə zəng etmiş, müavini Ceyms Obraynın səhvini düzəltmiş, onun Azərbaycana səfər etməsinə şərait yaratmasını xahiş eləmişdi. İndi də Blinken zəngi ilə Bakı-İrəvan xəttində olan dinamikanı alqışlayıb. Görünən budur ki, moderatorsuz danışıqlar ABŞ-ın ürəyincədir. Yeni Brüssel və Vaşinqton vasitəçilik təşəbbüsləri göstərmir, lakin Moskvasız aparılan ikitərəfli müzakirələri elə Qərb platforması kimi qəbul edirlər.

**Deputat Asim Mollazadənin "Yeni Müsavat"a bildirdiyinə görə, ABŞ ikitərəfli danışıqların pozitiv şəkildə getdiyini görür, amma eyni zamanda bu ölkə və Fransa erməni diasporunun təzyiqi altındadır:** "Onlar istəyirlər ki, münaqişə davam etsin və "erməni faciəsi" adı ilə vəsait toplasınlar. Çünki münaqişə həllini tapsa, erməni diasporu işsiz qalacaq. Bilirsiniz ki, bu il Avropa Parlamentində və ABŞ-da seçki ilidir, ona görə erməni diasporunun dəstəyini qazanmaq istəyənlər var. Azərbaycanın isə bütün addımları beynəlxalq hüquq normaları çərçivəsindədir. Bu səbəbdən bizə təzyiq göstərmək haqsızlıqdır".

**Deputatın sözlərinə görə, Blinken Paşinyanla da danışıb və yeri gəlmişkən, erməni diasporunun istəkləri erməni xalqının arzularını ifadə etmir:** "Ermənistanda olan əhali müharibələrdən yorulub. Blinken isə vəziyyətlə maraqlanır, çünki dediyim kimi, erməni diasporası təzyiq göstərir. O, Azərbaycan Prezidentinə zəng edir, Paşinyana da zəng etdiyi üçün balansı qorumağa çalışır. Amma ümumilikdə diaspora qarşısında Birləşmiş Ştatların səhvləri var".

A.Mollazadə COP29 konfrasına qədər sülh müqaviləsi imzalanması üçün maneə görmür, onun fikrincə, sadəcə olaraq, Ermənistanda olan hakimiyyət bu məsələdə siyasi rəqiblərindən qorxur.

**Vətəndaş Həmrəyliyi Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədliyə** görə, Blinkenin zəngi Bayden administrasiyasının reallıqlarla razılaşmasının göstəricisidir. Partiya rəsmisi Qərbin hazırkı danışıqlar prosesinə reaksiyasını Cənubi Qafqazda strateji rəqabətlə əlaqələndirir: "ABŞ Ermənistanda təsir imkanlarını artırır, Gürcüstanda Moskvaya yaxın milyarderin partiyasının əleyhinə aksiyalar təşkil edilir, Azərbaycanda isə rus hərbi kontigenti regionu tərk edir. Hər üç fraqment Vaşinqton üçün məqbuldur. Biz iddia edə bilmərik ki, Rusiya bölgəni tərk edir, amma müəyyən qədər nüfuz dairəsini azaltmaq səyləri var. Əlbəttə ki, belə bir gedişatda ABŞ Ermənistanla Azərbaycan arasında sülh sənədinin bağlanmasını arzulayardı". **VHP funksionerinin fikrincə, rəsmi Bakı balanslı iş aparır. S.Əsədli Blinkenin zəngini ABŞ-ın regionda Azərbaycana verdiyi əhəmiyyətlə əlaqələndirir:** "Konqresdə bir qrup ermənipərəstin sanksiya layihəsi irəli sürdüyü, Dövlət Departamentinin son hesabatında İran casuslarının müdafiə olunduğu bir zamanda Blinken zəngi ilə deyərdim ki, münasibətləri yoluna qoyur, məsələləri neytrallaşdırır. Üstəlik, ABŞ hazırkı razılaşmaları alqışlamaya bilməz. Avropa İttifaqı da dəstəklədi. Kimin səsi çıxmırsa, narahat olan tərəf də o qüvvələrdir. Azərbaycanla Ermənistan delimitasiya işinə praktiki başlayıblar, bu da sülh sənədinin imzalanması üçün böyük fürsətlər açır. Britaniya da sülh müqaviləsi bağlanmasının tərəfdarıdır. İki ölkənin rəhbərləri dövlət sərhədində görüşüb tarixi sülh sazişini imzalasalar, dünya ictimaiyyəti, qonşularımız, güc mərkəzləri, beynəlxalq təşkilatlar alqışlamağa məcburdurlar".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



## Prezident: "Azərbaycan-Çin münasibətlərində böyük canlanma baş verib"

**Azərbaycan-Çin siyasi əlaqələri yüksək səviyyədədir. APA xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul edən zaman bildirib.**

Dövlət başçısı ikitərəfli münasibətlərdə son vaxtlar böyük canlanmanın baş verdiyini qeyd edib.

Nəqliyyat sahəsində çox fəal birgə işlərin aparıldığını deyən Prezident İlham Əliyev bu baxımdan Transxəzər nəqliyyat dəhlizinin Orta dəhlizin bir hissəsi olduğunu vurğulayıb. Dövlət başçısı sərmayə qoyuluşu nöqteyi-nəzərindən yaxşı irəliləyişin olduğunu deyib. Belə ki, Çin şirkətləri Azərbaycana daha böyük həcmdə sərmayə qoyur. Dövlət başçısı eyni zamanda COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan-Çin məsləhətləşmələrinin aparıldığını vurğulayıb.

Prezident İlham Əliyev humanitar sahədə də gündəliyin kifayət qədər geniş olduğunu bildirib, Yan Vanminin ölkəmizə səfərinin əməkdaşlığımızın genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Dövlət başçısı qeyd edib ki, Si Cinpinin təşəbbüsü olan "Bir kəmər, bir yol" layihəsi ölkəmiz tərəfindən tam dəstəklənir və biz Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturunu yaradaraq qonşu ölkələrlə də təmaslar əsnasında bu layihənin həyata keçirilməsi istiqamətində səylərimizi əsirgəmirik.

Azərbaycanın Çin üçün çox vacib tərəfdaş olduğunu vurğulayan Yan Vanmin ölkəmizlə əməkdaşlığa böyük önəm verdiklərini bildirib. Qeyd edib ki, Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olub və bu baxımdan o, Transxəzər dəhlizinin bu təşəbbüsün reallaşmasına, ümumilikdə Azərbaycanın bütün nəqliyyat qovşağının inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Yan Vanmin ölkəsinin Azərbaycanın suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə göstərilən hörməti hər zaman dəstəkləyəcəyini vurğuladı, ölkələrimiz arasında qarşılıqlı etimadın daimi olacağına əminliyini bildirib.

COP29-un təşkilində də Çinin Azərbaycana dəstəyini qeyd edən qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə bu tədbirin uğur qazanacağına inamını ifadə edib.

YENİ MÜSAVAT
N 73 (8446) 30 aprel 2024

# Türkiyə Rusiyadan qaz asılılığını azaldır - niyə məhz indi...

## 2027-ci ilədək Türkiyədəki qaz habından Avropaya ildə 35,75 milyard kubmetr mavi yanacaq ötürmək mümkün olacaq

**Türkiyə hökuməti Amerikanın "ExxonMobil" şirkəti ilə ildə 2,5 milyon ton mayü qaz - LNG tədarükü üzrə danışıqlar aparır. Bu barədə İngiltərənin "Financial Times" (FT) qəzetinə Türkiyənin energetika naziri Alparslan Bayraktar məlumat verib.**

Onun sözlərinə görə, Ankaranın Moskva ilə qaz alqı-satqısına dair uzunmüddətli müqaviləsi 2025-ci ildə, Tehranla müqaviləsi isə 2026-cı ildə başa çatır. Bu müddətdə Türkiyə qaz tədarükünü diversifikasiya etməyə və təchizatçıların "yeni portfeli"ni yaratmağa çalışır.

A.Bayraktar bildirib ki, "ExxonMobil"lə müqavilə 10 il müddətinə bağlana bilər: "Enerji təhlükəsizliyini təmin etmək üçün biz haradansa qaz almalıyıq, bu, Rusiya və ya Azərbaycan, İran və ya LNG tədarükü ola bilər. Biz rəqabət üstünlüklərindən çıxış etməliyik. Kimin qazı daha ucuzdur?"

"Argus" analitik agentliyinin məlumatına görə, hazırkı qiymət səviyyəsində Türkiyənin "ExxonMobil"lə müqaviləsinin məbləği ildə təxminən 1,1 milyard dollar ola bilər. "Financial Times"ın hesablamalarına görə, nazirin göstərdiyi həcmlər ölkənin illik qaz istehlakının təxminən 7 faizini təmin etməyə kömək edəcək. Nəşr qeyd edir ki, hazırda Türkiyədə istehlak edilən qazın 40 faizini Rusiyadan gələn boru kəmərləri təmin edir.

"Financial Times" yazır ki, ABŞ şirkəti ilə danışıqlar Türkiyənin İsveçin NATO-ya müraciətini bəyənməsindən və Vaşinqtonun Ankaraya "F-16" qırıcıları satmağa razılıq verməsindən sonra mümkün olub. Bundan əlavə, Türkiyə özünü regional enerji mərkəzi kimi inkişaf etdirmək istəyir.

Keçən il Türkiyə enerji daşımalarının dərhal çatdırılması üçün alınıb satıldığı spot bazarda ABŞ-dan cəmi 5 milyon ton LNG idxal edib. Türkiyənin LNG tədarükü ilə bağlı digər ABŞ şirkətlərinə də müraciət etdiyi bildirilir.

A.Bayraktar Rusiya ilə "rəqabətə əsaslanan" enerji sövdələşmələrinin Türkiyəyə müharibə başlayandan sonra böyük Avropa ölkələrini bürüyən enerji böhranından qaçmaqda kömək etdiyini vurğulayıb.

Qeyd edək ki, ötən il Türkiyə Oman şirkəti ilə illik 1,4 milyard kubmetr - 1 milyon ton həcmində maye qaz tədarükünə dair müqavilə imzalayıb. On il müddəti olan müqavilənin icrasına 2025-ci ildə başlanacaq. Ötən il həmçinin Türkiyə Əlcəzairdən LNG alqı-satqısına dair müqavilənin müddətini daha 3 il müddətinə uzadıb. SONATRACH və BOTAŞ (Türkiyə) arasında Əlcəzairdən LNG alqı-satqısı müqaviləsi imzalanıb.

Türkiyənin rəsmi statistikasına əsasən 2023-cü ildə Türkiyədə təbii qaz istehlakı 5,50 faiz azalaraq 50 milyard kubmetr, qaz idxalı isə 7,64 faiz azalaraq 51 milyard 477 milyon kubmetr təşkil edib. BOTAŞ şirkəti idxalın və istehlakın azalmasını havaların isti keçməsi ilə izah edib. 2022-ci ildə qaz idxalının həcmi 56 milyard 11 milyon kubmetr, ümumi istehlak həcmi isə 53 milyard 521 milyon kubmetr olmnuşdu. Təbii qaz idxalının 28,27 faizi LNG formasında, 71,73 faizi isə boru xətti ilə həyata keçirilib.




İdxalda birinci yeri 35 faizlə Rusiya, ikinci yeri 19,41 faizlə ABŞ, üçüncü yeri isə təxminən 16 faiz payla Azərbaycan tutur. Digər qaz idxal edən ölkələr isə müvafiq olaraq İran, Əlcəzair, Fransa, Misir və Braziliya olub.

Bundan əlavə, ölkənin özündə təbii qaz hasilatı əvvəlki ilə nisbətən 112,55 faiz artaraq 807 milyon kubmetrə çatıb.

Bu il 53 milyard kubmetr istehlak proqnozlaşdırılıb.

Maraqlıdır ki, Türkiyənin qaz alışı mənbələrini diversifikasiya etmək istiqamətindəki addımları Rusiyada diqqətlə izlənilir, hətta müəyyən qısqanclıqla qarşılanır. Burada Avropanın Rusiyanın həm boru, həm də maye qazından imtinaya hazırlaşması amili mühüm rol oynayır. Belə ki, cari ilin sonunda Rusiyadan Avropaya Ukrayna üzərindən illik 14-15 milyard kubmetrə yaxın qaz nəqli dayanacaq: rəsmi Kiyev bu barədə Avropadakı tərəfdaşlarını məlumatlandırıb. Avropa Komissiyası Ukrayna üzərindən qaz alan Avstriya və İtaliyanın digər mənbələrdən təminatı üçün bir sıra addımlar atıb. Bura ilk növbədə maye qaz alınaraq qonşu ölkələrin infrastrukturu ilə xüsusilə Avstriyaya nəqli daxildir. Avropa Komissiyası mart ayında artıq bu sahədə böyük nailiyyət əldə olunduğunu və 2025-ci ilin yanvarında Rusiyadan qaz nəqli dayandıqda, heç bir ölkənin enerji böhranı yaşamayacağını açıqlayıb. Üstəlik, Avropa İttifaqı üzv ölkələrə tədricən Rusiyanın maye qazından da imtina olunmasını tövsiyə edib. Yaxın aylarda açıqlanması gözlənilən Rusiyaya qarşı 14-cü sanksiya paketində tövsiyənin məcburi göstəriş halında əksini tapacağı gözlənilir.

Belə bir vəziyyətdə Türkiyənin də Rusiya qazının alışını azaltmasını Moskva qıcıqla qarşılayır. Bundan əlavə, Türkiyənin qaz alışı imkanlarını genişləndirməsi Ankaranın qaz habının yaradılması prosesində də Rusiyadan asılılığını azaltmış olur. Belə ki, hazırda Türkiyə öz qaz təminatı mənbələrini diversifikasiya etməklə yanaşı, regional enerji mərkəzinin yaradılması ilə də məşğuldur. 2022-ci ildə Rusiya prezidenti Vladimir Putinin Avropaya qazı dolayı satmaq üçün təklif etdiyi mərkəz layihəsini Türkiyə həvəslə qəbul və inkişaf etdirdi. Putin Türkiyə ərazisində öz nəzarətində olan mərkəz yaradıb, qazı oradan Avropaya satmağı hədəfləsə də, rəsmi Ankara layihəni tamamən fərqli gördüyünü açıq bəyan etdi. Türkiyə öz ərazisində yaradılacaq mərkəzə nəzarətin Moskvada olmasını qəbul etmədi və nəticədə prosesdə Rusiyanın rolu minimuma düşdü.

Türkiyə regional qaz habının formalaşdırılması baxımından bir sıra mühüm üstünlüklərə malikdir: ölkənin yüksək inkişaf etmiş və iri tutumlu yeraltı qaz anbarları, iki maye qaz terminalı, üstəlik, əsas qaz mənbələrindən qazın nəqli üçün hazır infrastruktur - boru xətləri var.

Rusiyalı ekspertlərin hesablamalarına əsasən, 2027-ci ilədək Türkiyədəki qaz habından Avropaya ildə 35,75 milyard kubmetr mavi yanacaq ötürmək mümkün olacaq. Hazırda Türkiyəyə Qara dənizin dibindən "Türk axını" xəttinin iki borusu ilə 31,5 milyard kubmetr, "Mavi axın" xətti ilə 16 milyard kubmetr - cəmi 47,1 milyard kubmetr Rusiya qazının ötürülməsi imkanı var. 2022-ci ildə bu həcmin yalnız 33,2 milyard kubmetri reallaşıb. Əgər Türkiyə və Avropa ölkələrindən tələbat artarsa, ildə Rusiya bu xətlərlə Türkiyəyə əlavə olaraq 12,9 milyard kubmetr qaz ötürə bilər.

Türkiyənin həmçinin Təngiz-Ankara boru xətti ilə İrandan ildə 10 milyard kubmetr qaz almaq imkanı var.

Azərbaycandan isə Cənub Qaz Dəhlizi ilə ildə 25 milyard kubmetr qaz daxil ola bilər. Beləliklə, hazırda Türkiyənin 3 ölkədən qaz cəlb etmək potensialı illik 82,5 milyard kubmetrdir.

Türkiyədən Avropaya qaz ötürən iki xətt var: "Türk axını"nın Balkana uzanan hissəsi ilə ildə 15,6 milyard kubmetr (2022-ci ildə 11,6 milyard kubmetr ötürülüb-red.), Cənub Qaz Dəhlizinin Avropa komponenti olan TAP-la isə ildə 12 milyard kubmetr qaz ötürmək imkanı var. Bundan əlavə, əvvəllər Rusiya qazını Balkanlardan Türkiyəyə çatdıran Transbalkan qaz kəməri var ki, onun geriyə rejimlə işə salınması ildə 8-10 milyard kubmetr qazın Avropaya ötürülməsinə imkan verəcək.

Türkiyə qaz ticarəti mərkəzini ən azı bu ilin payızında işə salmağı hədəfləyir. Buna görə də ölkəyə mümkün qədər çox həcmdə və fərqli mənbələrdən qaz daxil olmasını təmin etməyə çalışır. Artıq Türkiyə üzərindən - Türkiyədən qaz alacaq bir neçə ölkə ilə müqavilələr də imzalanıb. Ötən il avqustun 20-də BOTAŞ Macarıstanın MVM CEENergy dövlət şirkəti ilə təbii qaz ixracı müqaviləsi imzalayıb. Sözügedən müqavilə Türkiyə üçün sərhədi olmayan bir Avropa ölkəsinə boru kəmərləri ilə təbii qaz ixrac etmək üçün bir ilkdir. Macarıstandan sonra 27 sentyabrda Rumıniya, 28 sentyabrda Moldova ilə təbii qaz ixracı müqaviləsi imzalanıb.

**Ankara eyni zamanda Rusiyanın Türkiyədə inşa etdiyi Akkuyu AES-də ilk enerji blokunun bu il ərzində işə salınmasına çalışır. Alparslan Bayraktar deyib ki, stansiyanın birinci reaktorunda işlər bitir:** "Birinci reaktorda işlərin demək olar ki, 95 faizi tamamlanıb, ümid edirəm ki, bu il ərzində nüvə enerjisi əsasında elektrik enerjisi istehsalına başlayacağıq".

Bayraktar daha əvvəl bildirmişdi ki, Akkuyu AES-in ilk enerji blokunun istismara verilməsi 2025-ci ilə planlaşdırılıb, lakin Türkiyə son müddəti irəli çəkməyə və bu il işə salmağa çalışır. Mümkün tarixlər arasında milli bayramın - Türkiyənin Cümhuriyyət Gününün qeyd olunduğu 29 oktyabr tarixi də var.

Dörd blokdan ibarət Akkuyu AES-də hər bir enerji blokunun gücü 1200 MVt olacaq. Hökumətlərarası sazişin şərtlərinə görə, AES-in birinci enerji blokunun istismara verilməsi bütün icazələr alındıqdan sonra yeddi il ərzində baş tutmalıdır. 2018-ci ildə ilk enerji blokunun tikintisi üçün lisenziyanın alınmasını nəzərə alsaq, bu müddət 2025-ci ilə təsadüf edir. Lakin Türkiyə bu tarixi irəli çəkir. Məqsəd enerji istehsalına sərf olunacaq qaz həcmlərindən mümkün qədər çox hissəni sərbəstləşdirməkdir.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**




## Azərbaycan "Meta" səhmlərinə 179 milyon sərmayə qoyub - ilk dəfə...

**"Dövlət Neft Fondu aldığı səhmlərdə ciddi dəyişikliklər edib. Yəni cari ilin birinci rübündə fondun texnoloji səhmlər paketində tendensiya belə olub. "Microsoft"un səhm portfeli 12,8% artaraq 494 mln. dollara çatıb. "Apple" üzrə səhm portfeli 15,5% azalaraq 419 mln. dollara enib. "NVIDIA"nın səhm portfeli 169 mln. dollar artıb və 371 mln. dollara yüksəlib. "Amazon"un səhm portfeli 233 mln. dollardan 279 milyon dollara çatıb".**

Musavat.com xəbər verir ki, bunu Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz bildirib. O əlavə edib ki, bu il ilk dəfə olaraq "Meta" platformasının səhmləri də alınıb və fond bu səhmlərə 179 milyon sərmayə qoyub. Beləliklə, 2024-cü il üçün qlobal texnoloji şirkətlərin Dövlət Fondunun kotirovka olunan səhm portfelindəki payları aşağıdakı qaydada olub:

- "Microsoft" 494 milyon ABŞ dolları,
- "Apple" 419 milyon ABŞ dolları,
- "NVIDIA" 371 milyon ABŞ dolları,
- "Amazon" 279 milyon ABŞ dolları,
- "Alfabet" ("Google" ) 258 milyon ABŞ dolları,
- "Meta" 179 milyon ABŞ dolları. Dövlət Neft Fondunun bu cür qlobal texnoloji şirkətlərə investisiya yatırması doğru və məntiqli bir addımdır. Süni intellekt bazarının genişlənməsi ilə trilyonluq şirkətlər siyahısına daxil olan NVİDİA-ya investisiyanın artırılması da məntiqlidir.

Amma dəfələrlə bu mövzuda təkliflərimiz də olub ki, bu şirkətlərin Azərbaycana dəvət edilməsi, nümayəndəliklərinin açılması və ciddi iş birliklərinin də qurulması çox vacib və faydalı olardı.

Bunun üçün də onlara münbit şərait yaratmaq lazımdır. Xatırladıram ki, bu siyahıda olan şirkətlərin 3-ü ilə Ermənistanın ciddi işbirliyi və birgə layihələri var".

Fond bundan əvvəl, 2023-cü ilin yekununa görə ən çox 5 şirkətin səhmlərini almışdı. "Apple" 496 milyon ABŞ dolları, "Microsoft" 438 milyon ABŞ dolları, "Alfabet" "Google" 258 milyon ABŞ dolları, "Amazon" 233 milyon ABŞ dolları, NVIDIA 202 milyon ABŞ dolları.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 73 (8446) 30 aprel 2024

# Paşinyan üçün kritik 2 gün: "Taleyi bu tarixdə həll olunacaq..."

## Ermənistan hökumətinin başçısı Putinin inauqurasiya mərasimində iştirak üçün Moskvaya getməlidir; onu 9 May paradında və Avrasiya İqtisadi Birliyinin yubiley tədbirində iştirak da gözləyir, lakin elə bir ərəfədə səfər edəcək ki...- şərh

**"Rusiya prezidenti Putinin inauqurasiyası Paşinyan üçün ciddi sınaq olacaq". "Yeni Müsavat"ın verdiyi xəbərə görə, bunu Ermənistanın Dövlət Gəlirləri Komitəsinin keçmiş rəhbəri David Ananyan "Ermənistan xəbərləri" - NEWS.am-ın müxbiri ilə söhbətində deyib. "Paşinyanın inauqurasiyaya getməsi ilə bağlı çox güman ki, qərar verilib", - deyə qeyd edib. Ananyana görə, belə mərasimlər olan gün ölkədə gecələmək çox vacibdir və bu, həmin dövlətə dost münasibət göstərir:**

"Paşinyan yəqin ki, bir gün Rusiyada qalacaq. Əgər belədirsə, ondan sonrakı gün mayın 9-u olacaq. O zaman Qələbə bayramına da qalacaqmı? Mayın 7-dən 9-na qədər olan müddətdə davranışı Paşinyanın nə dərəcədə avropapərəst olub-olmamasını göstərəcək. Avropayönlü olmaq isə Nikolun fikrincə, antirusiyaçı olmaq deməkdir. Qısası, həmin 2 gün ərzində onun siyasi lider kimi yaxın və uzunmüddətli taleyi həll olunacaq". Yeri gəlmişkən, Avrasiya İqtisadi Birliyinin də Moskvada toplantısı olacaq və erməni baş nazirin Rusiyaya getməməsi ağılasığmaz olardı.

Maraqlıdır ki, andiçmə mərasimi ərəfəsində Avropa Parlamenti Rusiya əleyhinə qətnamə qəbul edib. Sənəddə Avropa İttifaqı (Aİ) ölkələri Rusiyada keçirilən prezident seçkilərinin nəticələrini tanımamağa çağırılır. Aİ-nin üstündə əsdiyi Ermənistanın rəhbəri isə Putinin andiçməsinə gedir. Bu arada kapitulyant ölkənin keçmiş müdafiə naziri, Moskvada yaşayan general Arşak Karapetyan da virtual olaraq Ermənistandakı antihökumət etirazlarına qoşulub. Üstəlik, o, "Paşinyan öz "xunta"sı ilə birlikdə mühakimə olunmalıdır, nəinki vəzifədən azad edilməlidir", - deyə onu hədələyib. **Politoloq Elxan Şahinoğluna** görə, 2020-ci ilin aksiyalarında hərbçilər və polislər etirazçılara qoşulmamışdılarsa, əksinə, radikallarla mübarizə aparırdılarsa, bu dəfə hərbçilərdən qopmalar baş verib ki, bu, polisə də sirayət edə bilər. Odur ki, onun fikrincə, Nikol Paşinyan taktikanı dəyişib etirazları yatırtmağa çalışmalıdır, əks təqdirdə, onun daxili və xarici düşmənləri birləşib çevriliş həyata keçirməyə çalışacaqlar.

Hər halda, Paşinyan üçün əhəmiyyətli dönəmdir. Bir yandan Rusiya səfəri, bir yandan isə ruspərəstlərin İrəvanda qarışıqlıq cəhdləri var. Paşinyanın Moskvaya səfəri çox mübahisəli ola bilər". Bunu da **Rusiya Beynəlxalq Münasibətlər Şurasının eksperti Aleksey Fenenko** deyib. "Ermənistanın baş naziri Qərb kuratorlarının tələbi ilə açıq şəkildə anti-Rusiya bəyanatları səsləndirməklə Moskva ilə İrəvan arasında daha da gərginlik yaradacaq addımlar ata bilər. Bu, Moskva ilə münaqişəni Ermənistan deyil, Rusiyanın başlatdığını göstərmək məqsədilə edilə bilər. Yazıda olduğu kimi: "KTMT Ermənistanı tərk etdi, Ermənistan KTMT-ni yox". Amma Nikol bunu yalnız o halda edəcək ki, Qərbdə ona real təhlükəsizlik təminatları veriləcəyinə əmin olsun", - o bildirib. Fenenkonun sözlərinə görə, Rusiyanın Ermənistana



diplomatik dəstəyi getdikcə azalacaq: "Qərbin Ermənistana nə dərəcədə tam dəstək vermək istəyinin olması, məncə, hələ də böyük sualdır. Paşinyan ona tapşırılan vəzifəni - Ermənistanı KTMT-dən çıxarmağı həll etməlidir. Eyni zamanda ölkədə, o cümlədən gənclər arasında anti-Rrusiya əhval-ruhiyyəsi yaratmalıdır".

"Əgər Rusiyada andiçmə mərasiminə dəvətli olacaqsa, Paşinyan siyasi etiket və nəzakət qaydalarına uyğun olaraq ora getməlidir. O, Ərdoğanın da inauqurasiya mərasimində iştirak edib. Bundan imtina isə birmənalı şəkildə siyasi tərbiyəsizlik kimi qəbul ediləcək. Əlbəttə, Nikol istəməzdi ki, münasibətlərin gərgin dövründə Rusiyada çətin suallar qarşısında qalsın. Amma getməlidir, üstəlik, Avrasiya İqtisadi Birliyinin yubiley toplantısı da var..." - "Yeni Müsavat"a danışan **siyasi ekspert Fuad Əliyev** belə proqnozlaşdırır. Onun sözlərinə görə, Ermənistan lideri elə bir ərəfədə səfər edir ki, Zvartnots aeroportundan rus sərhədçiləri çıxarılır, KTMT-də iştirak "dondurulub", spiker Simonyan Ukrayna müharibəsi ilə bağlı Rusiyanı işğalçı adlandırıb və qarşılıqlı ittihamlar da səngimir: "Amma gəlin onu da unutmayaq ki, Rusiyanı işğalçılıqda günahlandıran Ermənistan, bu ölkəyə tətbiq edilən sanksiyalardan yayınmaqda ona kömək edir. Deməli, İrəvan riyakardır. O baxımdan Nikol Moskvaya səfərində özünü diskomfort hiss etsə də, olan-qalan bu əlaqələri korlamamaq üçün getməyə məcbur qalacaq". F.Əliyev Ermənistanda olan aksiyalarda bir qrup hərbçinin iştirakını riskli tendensiya hesab etsə də, hakimiyyətin prosesi hələ ki kontrol edə bildiyini düşünür: "Hərbi qiyam üçün Müdafiə Nazirliyinin rəhbərliyində siyasi hakimiyyətə itaətsizlik olmalıdır. Ancaq görürük ki, ölkənin müdafiə naziri Suren Papikyan Nikol Paşinyanın adamıdır və hadisələrin cızığından çıxmasına imkan verilmir. Hətta onlar hərbçi olmaya da bilər, kamfulyaj olunub aksiyada iştirak edə bilərlər. Fikrimcə, lokal xarakterli etirazlardır, bir müddət sonra sənigyəcək. O baxımdan Paşinyan Moskva səfərindən narahat olmamalıdır".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Paşinyan Moskvaya gedəcəkmi?..

**Əvvəlcə prezident Vladimir Putinin növbəti inauqurasiya mərasimi, daha sonra Avrasiya İqtisadi Birliyinin on illik yubiley tədbiri, daha sonra isə ənənəvi qələbə paradı! Doğrudanmı erməni baş nazir bu üç tədbirin üçünü də iqnor edəcək? Bizə qalsa, belə düşünmürük və belə hesab edirik ki, böyük ehtimalla erməni lider Moskvaya səfər edəcək - ən azı Avrasiya İqtisadi Birliyinin tədbirində iştirak etmək üçün!**

**Hüseynbala SƏLİMOV**



Qeyd edək ki, bizim siyasi təhlilçilərin də böyük hissəsinin diqqəti bu tədbirlərə yönəlib, hansılar ki, mayın 7-dən start götürməlidir. Bəli, bizim insanlar Nikol Paşinyana inanmamaqda davam edirlər və hər dəfə belə zənn edirlər ki, erməni baş naziri hansısa hiyləgərlik edəcəkdir.

Əlbəttə, biz də belə ehtimalları istisna etmirik. Amma çox böyük ehtimalla götürəndə, Paşinyan bu illər ərzində Azərbaycana qarşı hər hansı addım atmayıb - əlbəttə, İkinci Qarabağ savaşını nəzərə almasaq!

Amma erməni baş naziri də bu müharibənin nəticələrini nəinki qəbul etdi, hətta bu yaxınlarda heç bir savaş və gərginlik olmadan dörd kəndi Azərbaycana qaytardı. Odur ki, biz də Paşinyana qarşı azacıq da olsa, münasibətimizi dəyişməliyik, ən azı ona görə ki, erməni baş naziri hətta öz həmvətənlərinin psixologiyasını da dəyişməyə çalışır, anlayır ki, neçə illərdir davam edən düşmənçilik ermənilərə heç nə verməyəcək.

Doğrusu, bu yaxınlarda onun öz həmvətənlərinə "Azərbaycanın yaxın olması sizi qorxutmamalı, əksinə, sevindirməlidir!" deməsi bizim də bu adama qarşı münasibətimizi xeyli dəyişdi.

Oxşar hissləri biz əvvəlcə neçə illər bundan əvvəl də keçirmişdik. Bəli, ötən əsrin yetmişinci illərinin sonları idi. Erməni yazıçısı Qrant Motevasyonun bir əsərini oxumuşduq. Bilirsiniz, keçirdiyimiz ilk hiss, təəssürat nə oldu? Sən demə, ermənilər də bütün digər bəşər övladları kimi adi insanlar idi! Bəli, tamamilə adi insanlar - ən adi hisslərin yad olmadığı ən adi insanlar!..

Daha sonra, bir neçə il bundan əvvəl Almaniyanın məşhur kansleri Konrad Adenauer haqqında bir yazı oxumuşduq - sən demə, bu adam təkcə yeni iqtisadiyyat və yeni siyasət yaratmırmış, həm də almanların psixologiyasını dəyişməyə cəhd edir, onları faşizm zəhərindən qurtarmaq üçün almanları digər xalqlarla, hətta slavyanlarla müqayisə edirmiş.

Əlbəttə, bizim Paşinyanı Adenauerlə müqayisə etmək fikrimiz yoxdur - erməni baş naziri hələ sübut etməlidir ki, o, həqiqətən də Azərbaycan və Türkiyə ilə münasibətləri dəyişməyə çalışır və üstəlik, özü də ən azı bir orta statistik erməni kimi türklərə heyvani münasibət bəsləmir...

Qayıdaq Rusiya məsələsinə. Hazırda Ermənistanda vəziyyət mürəkkəb və gərgin olaraq qalır. Revanşist müxalifət bir tərəfə, kilsə də Paşinyana qarşı açıqlıdır, insanları ona qarşı qaldırmağa çalışır. Amma bizə elə gəlir ki, bütün bunların heç bir nəticəsi olmayacaq. Ermənilərin böyük əksəriyyəti hələ ki Paşinyana dəstək verir. Özü də bu, təkcə onunla bağlı deyil ki, ermənilərin də böyük hissəsi daha müharibə istəmir, həm də belə məqam var ki, Paşinyanın idarəçiliyi dövründə ölkə iqtisadiyyatında ciddi artım müşahidə olunur. Bu artımın da böyük hissəsi Rusiya ilə, Avrasiya İqtisadi Birliyi çərçivəsindəki əməkdaşlıq sayəsində mümkün olub. Sözsüz, Paşinyan bütün bunları nəzərə almaya bilməz - məhz buna görə də o, daim Rusiya ilə iqtisadi əməkdaşlığın qalmasında maraqlı olduğunu bildirir.

Ermənistan iqtisadiyyatının Avropa İttifaqı ölkələrinə inteqrasiya olunmasından danışmaq fantastik bir hekayə söyləmək kimidir. Odur ki, Paşinyan böyük ehtimalla Moskvaya səfər edəcək və yaxud da ermənilər bu tədbirlərdə hansısa statusda iştirak edəcəklər. Düşünürük ki, Qərb də buna anlaşıqla yanaşacaq, ona ki, o, Ermənistanın bütün yükünü birdən-birə çiyinlərinə götürə bilməz...

Yeni MÜSAVAT
N 73 (8446) 30 aprel 2024

# "Azərbaycanın Avrasiyada əsas nəqliyyat qovşağı kimi mövqeyi daha da güclənəcək"

**"Qarşıdakı illərdə Azərbaycanın Avrasiyada əsas nəqliyyat qovşağı kimi mövqeyi daha da güclənəcək".**

"APA-Economics" xəbər verir ki, bu, "Fitch Solutions" (FS) şirkətinin qlobal ticarət riskləri ilə bağlı hesabatında qeyd edilib.

"Ölkə risk komandamız Azərbaycanın xarici siyasətinin qarşıdakı illərdə də Türkiyənin xarici siyasəti ilə sıx bağlı qalacağını gözləyir. Nəticə etibarı ilə, iki xalq arasında münasibətlər möhkəm qalacaq. Bununla belə, Azərbaycanın Rusiya ilə münasibətləri də istiləşəcək. Azərbaycan Rusiyanı dəmir yolu ilə İrana, oradan isə dəniz yolu ilə Hindistana birləşdirən Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizində əsas mövqe tutur. Moskva və Tehran Azərbaycanda da Orta dəhlizlə kəsişən bu dəhlizin inkişafı istiqamətində addımlar atır. Bu, çox güman ki, Azərbaycanın Avrasiyada əsas nəqliyyat qovşağı kimi mövqeyini gücləndirəcək" - FS-nin şərhində əlavə edilib.



# Blinken: "NATO-nun Rusiya əleyhinə planı yoxdur"

**"NATO-nun Rusiya əleyhinə planı yoxdur, gələcəkdə də olmayacaq".**

APA-nın xəbərinə görə, bunu ABŞ-ın dövlət katibi Entoni Blinken Səudiyyə Ərəbistanına səfəri zamanı deyib.

Onun sözlərinə görə, alyans Finlandiya və İsveçin üzv olması ilə daha da güclənib.

Qeyd edək ki, NATO-nun ötən il Litvada keçirilən sammitində üzv ölkələr Rusiyanı təhlükəsizliyə birbaşa təhdid adlandırıb. Həmin tədbirdə "soyuq müharibə" dövründən sonra ilk dəfə alyans ölkələrinin müdafiə planı təsdiqlənib.



# Tehranın Tramp xofu - səbəb...

## İran Baydenin qələbəsini istəyir, Azərbaycan isə...

**"İran ABŞ prezidenti Co Baydenin bu ilin noyabrında keçiriləcək prezident seçkisində qalib gəlməsi üçün Suriyadakı hərbi mövcudluğunu azaldıb".**

Bu barədə Səudiyyə Ərəbistanının "Asharq Al-Awsat" qəzeti yazıb.

Nəşrin iddiasına görə, Tehran keçmiş prezident Donald Trampın və ya başqa bir respublikaçının qələbəsini istəmir. Bu səbəbdən Tehran konkret olaraq Baydenin regionda qalib gələ biləcəyini göstərmək istəyir.

Xatırladaq ki, Tramp 2018-ci ildə İranla 5+1 (ABŞ, Rusiya, Çin, Böyük Britaniya, Fransa və Almaniya) formatında 2015-ci ildə imzalanmış nüvə sazişindən çıxıb. Anlaşma Tehrana qarşı beynəlxalq sanksiyaların ləğvi müqabilində İranın nüvə proqramına məhdudiyyətlər nəzərdə tuturdu. Həmçinin Trampın prezidentliyi dövründə, 2020-ci ildə "SEPAH"ın "Qüds qruplaşması"nın komandanı Qasim Süleymani aradan götürülüb.

Bu arada "Rasmussen Rerorts" tədqiqat mərkəzinin dərc etdiyi sosioloji sorğunun nəticələrinə görə, ABŞ vətəndaşlarının əksəriyyəti keçmiş prezident Donald Trampın noyabrda keçiriləcək prezident seçkisində qalib gələcəyinə inanır. Belə ki, respondentlərin 56%-i Trampın ABŞ-ın hazırkı prezidenti Co Baydenə qalib gəlmə ehtimalının olduğunu bildirib. Sorğunun nəticələrinin statistik səhvi 3 faiz bəndidir. Araşdırma aprelin 11, 14 və 15-də aparılıb. Sorğuda mindən çox insan iştirak edib və onlar 2024-cü ildə keçiriləcək prezident seçkisində səs vermək niyyətindədirlər.

Bəs İran Trampın qələbəsindən niyə ehtiyatlanır? Azərbaycana, Rusiyaya necə, Baydenin qalması, yoxsa getməsi sərfdir?

**Sabiq maliyyə naziri, iqtisadi və siyasi məsələlər üzrə ekspert Fikrət Yusifov hesab edir ki, İranın ABŞ-da kimin prezident seçilməsinə cəhd etməsi heç nəyi dəyişmir:** "Mövcud durum onu deməyə əsas verir ki, Trampın prezident seçkisində qalib gəlmək şansı daha çoxdur. Demokratlar isə Baydenin yenidən Ağ Evdə otura bilməsi üçün əllərindən gələni edirlər. Lakin görünən budur ki, hələlik üstünlük Trampın tərəfindədir. Bu ilin noyabr ayının 5-nə təyin olunmuş seçkilərdə kim qalib gələcək? Bu sual tək Amerika cəmiyyətini deyil, bütün dünyanı düşündürür. Seçkilərin keçiriləcəyi günə 6 aya yaxın vaxt qalır. Bu müddət ərzində dünyada cərəyan edən hadisələr necə inkişaf edəcək? Bu sualın cavabını demək olar ki, heç kim bilmir. ABŞ-da son dəfə keçirilmiş seçkilərdən sonra baş vermiş hadisələr hələ unudulmayıb. Trampın tərəfdarlarının Konqresin binasına hücumu və onların bu günə qədər həmin seçkilərin C.Baydenin xeyrinə saxtalaşdırıldığına əminliyi, qarşıdakı seçkilərdə vəziyyətin kifayət qədər "isti" olacağından xəbər verir.

Bu seçkilərlə bağlı tanınmış politoloqların və siyasi şərhçilərin fikirləri də kifayət qədər fərqlidir. Bəziləri hətta hesab edirlər ki, bu seçkilərdə nə Bayden, nə də Tramp qalib gələ biləcək. Mən də bu fikirləri tam bölüşürəm. Seçkilərdən sonra ABŞ-da elə bir qarşıdurma yarana bilər ki, sonda bu seçkilərin nəticələrini ləğv edib, yeni seçkilər təyin etməkdən başqa seçim qalmaz. O halda Bayden də, Tramp da seçkidə iştirakdan məhrum edilə bilərlər. Bir sözlə, Amerika cəmiyyətini qarşıda bəlkə də tarixdə indiyə qədər olmamış bir seçki şousu gözləyir".

**Sabiq nazir dedi ki, İranın bu seçkilərdə kimin qalib gəlməsinə çalışması heç nəyi dəyişə bilməz:** "Bəli, İran hakimiyyəti Trampın prezidentliyi dövründə daha çox sıxıntılarla üz-üzə qalmışdı. Trampın təkidi ilə ABŞ-ın nüvə sazişindən çıxması, İrana bu saziş müqabilində tətbiq edilən sanksiyalarla bağlı problemlər yaşatdı. Rusiya-Ukrayna cəbhəsində hadisələrin necə inkişaf etməsindən, Yaxın Şərqdə İsraillə HƏMAS və digər hərbi qruplaşmalar arasında qarşıdurmaların necə yekunlaşacağından asılı olmayaraq, ABŞ-da seçkinin taleyini Birləşmiş Ştatların vətəndaşları həll edəcək. Trampın seçicilərinin böyük əksəriyyətinin onun özü kimi çılğın davranması da bu elitanın intellekt əmsalının (İQ) çox aşağı olması ilə izah edilir. Oxucularımızı inandırıram ki, bu adamların çoxu nəinki dünyadakı münaqişə ocaqlarının harada yerləşdiyindən xəbərsizdilər, onların böyük əksəriyyəti heç dünyanın neçə qitədən ibarət olduğunu belə bilmirlər. Belə elita isə həmişə təhlükəlidir..."

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli:** "Belə qəbul olunur ki, respublikaçılar dünyada insan haqları, demokratiya və s. demokratlardan daha az önəm verirlər. Ona görə də avtoritar üsulla idarə olunan dövlətlər respublikaçılarla daha rahat, tez ünsiyyət qururlar. Bu tam belə olmaya da bilər, amma ümumi baxış bu cürdür. Amma o da var ki, respublikaçılar xarici siyasətdə daha yırtıcı olurlar. Bu da ABŞ ilə rəqabətdə olan ölkələrin maraqlarına cavab vermir. Söhbət əgər məhz Trampdan gedirsə, bu da artıq başqa bir mövzudur. Çünki Tramp respublikaçıların düşərgəsində də birmənalı qarşılanmır. Bunu biz onun prezident dönəmində də gördük. Trampın prezidentlik müddəti həm də daxili istefalar, skandallarla yadda qaldı. Tramp gözlənildiyi kimi özünəməxsusluğu ilə seçildi. Qüds və Qolan yüksəkliklərini İsrailin ərazisi kimi tanıdı. Tarixdə ilk dəfə ABŞ Şimali Koreya ilə danışıqları başladı. Rusiya ilə münasibətləri normallaşdırmağa çalışdı. Türkiyə ilə yaxınlaşmaq istədi. Lakin İranla, əksinə, danışıqlardan çıxdı. Unutmayaq ki, Azərbaycan da torpaqlarını məhz Tramp dövründə azad etdi. Düzdür, bu onun axırıncı ayları idi, amma fakt yenə də faktlığında qalır. Trampın seçilməsində Rusiyanın əli olduğu iddialarını da yada sala bilərik. Qonşusu Meksika ilə divarın tikilməsi də məhz Trampın dövlət başçılığında öz aktuallığını tapmışdı. İndiki vəziyyətə gəldikdə isə Tramp bir günə Ukrayna müharibəsini dayandırmağa söz verir. Yenə sona qədər İsrailin yanında olduğunu söyləyir. Onun bu cür tavırları bir tərəfdən, Rusiyaya sərf edir, lakin İrana isə sərf etmir. Bax belə bir paradoks yaranır. Azərbaycana gəldikdə isə düşünürəm ki, Əliyev Trampla dil tapacaq. Trampın əvvəlki prezident dövründə o, Azərbaycanla kifayət qədər normal münasibətlər qurmuşdu. Bu tendensiyanın davam edəcəyini düşünürəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 73 (8446) 30 aprel 2024

# Gürcüstan vətəndaş qarşıdırmasına sürüklənir - tətikçi kimdir?

## Politoloq: "Hazırda hakimiyyətdə olan qüvvələr Rusiya ilə münasibətləri düzəltmək xəttini götürüb"

**Gürcüstanda vəziyyət gərgin olaraq qalır. Tiflisdə "Xarici agentlər haqqında" qanuna qarşı növbəti yürüş keçirilir. Bazar günü və dünən müxalifətin "Xarici agentlər haqqında" qanuna qarşı növbəti etiraz yürüşü keçirilib.**

Etirazçılar Respublika meydanından şəhərin mərkəzindəki Gürcüstan parlamentinə doğru yürüş ediblər.

Yürüş iştirakçıları ölkənin adını və "Rusiya qanunlarına yox!" şüarlarını səsləndiriblər. Parlament binasının üzərinə "Rusiya işğalçıdır!" yazısı və Gürcüstan bayrağı proyeksiya edilib.

Müxalifət bəyan edir ki, "Xarici agentlər haqqında" qanun Moskvanın göstərişi ilə hakim partiya tərəfindən qəbul edilir. Qanun layihəsinin müəllifləri isə müxalifətin iddialarını təkzib edirlər.

Hakim "Gürcü arzusu" qanun layihəsinin tərəfdarlarının aprelin 29-da yürüş-mitinqini təşkil edib.

Bazar günü keçirilən mitinq zamanı isə nümayişçilər qanun layihəsinin tərəfdarlarının çıxışı üçün qurulmuş səhnəyə keçməyə cəhd ediblər. Etirazçılarla təhlükəsizlik qüvvələri arasında toqquşmalar olub. Bu zaman bir neçə nəfər saxlanılıb. Onların arasında Gürcüstanın Avropaya inteqrasiya üzrə keçmiş naziri Aleksi Petriaşvili də var. Daxili İşlər Nazirliyi onu xırda xuliqanlıqda və polisə tabe olmamaqda ittiham edib.

Dünən isə parlamentdə qanun layihəsinin ikinci oxunuşda müzakirəsi başlayıb. 2023-cü ildə müxalifətin və vətəndaş cəmiyyətinin etirazlarından sonra analoji sənəd onun müəllifləri tərəfindən parlamentdən geri götürülüb.

Qeyd edək ki, ABŞ və Avropa İttifaqı sözügedən qanun layihəsini kəskin tənqid edir və Tiflisi onu geri götürməyə çağırırlar. ABŞ Senatının bir qrup üzvü, əks halda, Gürcüstanın rəhbər şəxslərinə qarşı sanksiyalar tətbiq ediləcəyini, Brüssel isə ölkənin Avrointeqrasiya kursunun ciddi şəkildə zədələnəcəyini bəyan edib.

Ekspertlər hesab edir ki, hakim partiyanın Qərbin təzyiqləri qarşısında geri çəkilməməsi, əksinə, tərəfdarlarını küçələrə çağırması Gürcüstanda payızda keçiriləcək parlament seçkiləri ərəfəsində ciddi siyasi böhranın baş verəcəyini göstərir.




Gürcüstanı kim qarşıdırır? Rusiya Gürcüstana qayıdır?

**Politoloq Azad Məsiyev** "Yeni Müsavat"a bildirdi ki, məsələyə daha qlobal səviyyədə yanaşmaq düzgün olar. Hazırda dünya qlobal güclərinin arasında böyük savaş gedir. Bu savaş indi də Gürcüstana transfer olunur: "ABŞ Rusiyanı düşmən elan edib və bütün postsovet məkanından sıxışdırıb tamamilə çıxarmaq, Rusiyanı zəif, sözə baxan ölkəyə çevirmək, hətta mümkün olsa, dünya siyasi xəritəsindən silmək istəyir. Bunun üçün Qərb koalisiyası Rusiya ətrafında qaynar ocaqlar yaradır, Rusiyanı müharibələrə cəlb edir, rəngli inqilablar, demokratiya adı altında ayrı-ayrı dövlətlərdə hakimiyyət dəyişiklikləri təşkil edir, hakimiyyətə gətirdiyi adamlarını Rusiyaya qarşı siyasət aparmağa yönəldir. Bunun bariz nümunəsinə Gürcüstanda, Ukraynada, Moldovada şahid olmuşuq, indi isə Ermənistan nümunəsində şahid olmaqdayıq. Amerika hətta Belarusda hakimiyyəti inqilabla dəyişib öz adamlarını iqtidara gətirmək istədi. Gürcüstanda bir zamanlar Mixail Saakaşvilini inqilabla hakimiyyətə gətirdilər və bundan sonra Gürcüstan Rusiyaya qarşı açıq-aşkar siyasi xətt götürdü. Sonda itirən Gürcüstan və Saakaşvili oldu. Gürcüstan ərazilərini, Saakaşvili azadlığını, sağlamlığını itirdi. Qərb bu gün nə Gürcüstanın torpaqlarının geri qaytarılması üçün, nə də Mixail Saakaşvilinin azadlığa çıxması üçün tükünü belə tərpətmir. Bir müddət sonra Ukrayna ilə bağlı da belə bir vəziyyətin şahidi olacağıq. Ukraynanı Rusiya ilə qatı düşmən edib sonda kənara çəkiləcəklər. Nəticədə Ukrayna parçalanacaq, Zelenski isə ən yaxşı halda Saakaşvilinin taleyini yaşayacaq.

Gürcüstanda hazırda hakimiyyətdə olan qüvvələr Rusiya ilə münasibətləri düzəltmək xəttini götürüb. Bu, ən düzgün yoldur. Nəhəng qonşu dövlətlə konfrontasiyanın Gürcüstana xeyir verməyəcəyini anlayırlar. Lakin bunu hələ anlamayanlar da var. Ona görə də Gürcüstanda ikihakimiyyətlilik yaranıb. Prezidentlə baş nazir arasında yaranan fikir ayrılığı bu vəziyyəti yaradıb. Prezident anti-Rusiya mövqeyindədir, baş nazir isə Rusiya ilə münasibətlərin yaxşılaşdırılmasının tərəfdarıdır. Gürsütanda son zamanlar yaşanan qarışıqlığın səbəbi budur. Yəni bu mitinqlərdə bu amil rol oynayır. Əslində söhbət haqqında danışılan qanundan gedirsə, bu qanunun qəbul olunması Qərbə sərf etmir. Deməli, məntiq onu deyir ki, ölkənin qarışmasında, mitinqlərdə Qərb dairələri, ölkənin daxilindəki Qərbə bağlı olanlar maraqlıdır. Onlar bu yolla hökumətə, parlamentə təzyiq və təsir göstərməyə çalışırlar".

**Politoloq qeyd etdi ki, aksiyaları keçirənlər, qarşıdurma yaradanlar əsasən Qərbin Soros Fondu kimi təşkilatlarından qidalanan QHT-lər, siyasi təşkilatlardır. Çünki onlar maliyyə qaynaqlarından məhrum olacaqlarını düşünürlər:** "Qərb və ona bağlı olan daxildəki qüvvələr etirazların miqyasını genişləndirib hökuməti devirmək həddinə qədər inkişaf etdirməkdə maraqlıdırlar. Bütün gücləri ilə buna çalışırlar. ABŞ başda olmaqla, Qərb Gürcüstanın Rusiya ilə münasibətləri normallaşdırmasının qarşısını almaq üçün hökumət dəyişikliyi etmək planı qurub. Bu plana görə hökuməti devirib tamamilə Qərbə bağlı olan qüvvələri iş başına gətirmək nəzərdə tutulub. Bu tendensiya artıq açıq-aydın görünür".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Gürcüstanın Aİ-yə üzv olmaq məsələsi - ölkədə ikitirəlik var



**Avropa İttifaqı Gürcüstanı üzvlüyünə qəbul etməyə can atmır və dövlətin özü də buna hazır deyil. Musavat.com xarici mediaya istinadla xəbər verir ki, bunu ölkədə hakim "Gürcü arzusu" partiyasının sədri İrakli Qaribaşvili deyib.**

Qaribaşvilinin vurğuladığı kimi, Gürcüstan hakimiyyətinin Avropa İttifaqına daxil olması ilə bağlı ortaq rəyi yoxdur. Eyni zamanda onun sözlərinə görə, Tiflis Gürcüstan Aİ-yə dəvət olunandan dərhal sonra xarici agentlər haqqında qanunu ləğv edəcək.

"Parlamentdə müzakirələr, məşvərətlər aparıla bilər, qalan hər şey seçkilərdə həll olunmalıdır", - o vurğulayıb.

Bundan əvvəl Gürcüstanın baş naziri xarici agentlər haqqında qanunun ölkəni ukraynalaşmadan xilas edəcəyini bildirmişdi.

Bu məsələyə dair gürcü cəmiyyətində və Gürcüstan iqtidarında iikitirəlik var: prezident Salome Zurabişvilinin komandası və tərəfdarları ölkənin Avropaya yaxınlaşmasının və tam inteqrasiyasının tərəfdarıdır, baş nazirin komandası isə buna qarşıdır.

❑ **Musavat.com**



# Konsulun vəzifələri artırılıb

**Karantin qoyulan xəstəliklər əvvəllər bu xəstəliklərin olmadığı ərazilərdə meydana çıxdıqda konsul xəstəliyin yayıldığı rayonun adını, xəstəliyə tutulmuşların sayını və yerli hakimiyyət orqanları tərəfindən epidemiyaya qarşı görülən tədbirləri göstərməklə, bu barədə dərhal Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə məlumat verməlidir.**

APA-nın xəbərinə görə, bu, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Qanunun tətbiqi barədə imzaladığı fərmanda əksini tapıb.

İndiyə qədər karantin qoyulan xəstəliklər əvvəllər bu xəstəliklərin olmadığı ərazilərdə meydana çıxdıqda konsul xəstəliyin yayıldığı rayonun adını, xəstəliyə tutulmuşların sayını və yerli hakimiyyət orqanları tərəfindən epidemiyaya qarşı görülən tədbirləri göstərməklə, bu barədə dərhal Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə məlumat verib.




# Azad edilmiş ərazilərdə daha 159 mina, 380 PHS aşkarlanıb

**İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən icra olunan əməliyyatlar barədə həftəlik məlumat (22.04.2024 - 28.04.2024) açıqlanıb.**

ANAMA-dan APA-ya verilən məlumata görə, Tərtər, Ağdam, Ağdərə, Laçın, Füzuli, Şuşa, Xocalı, Xankəndi, Kəlbəcər, Qubadlı, Xocavənd, Cəbrayıl və Zəngilanda 59 piyada əleyhinə mina, 100 tank əleyhinə mina, 380 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb.

Bildirilib ki, 1 245 hektar ərazi mina və PHS-lərdən təmizlənib.





# "Nar"dan sərfəli smartfon təklifi

**Müştərilərinə sərfəli qiymətlər təklif edən "Nar" satış və xidmət mərkəzlərində Xiaomi və Tecno smartfonlarının ən məhşur modellərini təqdim edir. Qeyd edilən smartfonları nağd ödəniş və ya BirKart ilə aldığınız təqdirdə, 10%-ə qədər xüsusi endirim əldə edəcəksiniz. Digər bir üstünlük isə, bu smartfonların alıcılarına 12 ay pulsuz mobil internet və bir illik zəmanət verilməsidir.**

**Bundan əlavə, operatorun sərfəli qiymət strategiyasına uyğun olaraq, müştərilər BirKart ilə ödəniş edərkən Xiaomi və ya Tecno modellərini ayda cəmi 14,4 AZN-dən başlayaraq əldə edə bilərlər. Təklif edilən ən sərfəli cihazın qiyməti cəmi 184.9 AZN-dir.**

**"Nar" mağazalarında smartfon satışı ilə yanaşı, mobil telefonlar üçün müxtəlif cihaz və aksessuarlar, telefon nömrələrinin satışı və bərpası, eləcə də digər xidmətlər təklif olunur. Operatorun müştəriyönümlük strategiyasına uyğun olaraq, "Nar" abunəçiləri bu yüksək keyfiyyətli xidmətlərdən sərfəli qiymətə yararlana bilərlər.**

**"Nar" mağazalarının siyahısı və təklif olunan xidmətlər haqqında ətraflı məlumatı keçidə ttps://www.nar.az/senin-ucun/xeberler?page=1&category=Layih%C9%99l%C9%99r daxil olaraq əldə edə bilərsiniz.**

**Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.**


# ADNA terrorundan 15 il ötür - açıq qalan suallar

## Avropa Məhkəməsi bu terrora görə ömürlük həbsdə olan şəxsin şikayətini baxışdan çıxarıb

**2009-cu il aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyasının (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) tədris binasına silahlı hücum oldu. Bu gün həmin terror aktının törədilməsindən 15 il ötür. Qanlı terakt nəticəsində müəllim və tələbələrdən 12 günahsız insan qətlə yetirildi, 13 nəfər isə yaralandı.**




ADNA-da qanlı terror olayı baş verəndən sonra 3-ü Gürcüstan vətəndaşı olmaqla, 4 azərbaycanlı həbs olunub. Onlardan 3-ü barədə ömürlük, biri haqda isə 12 illik həbs cəzası çıxarılıb. Məhkəmədə isə üzə çıxıb ki, ittiham olunan şəxslərdən heç biri terror aktı baş verən zaman Neft Akademiyasının binasında olmayıblar. İş üzrə proses aparılarkən təqsirləndirilən Nadir Əliyev, Cavidan Amirov və Nəcəf Süleymanov dəhşətli işgəncələrə məruz qaldıqlarını, Fərda Qədirovla hər hansı bir cinayət törətmədiklərini bildiriblər. Sübut yetərsizliyinə baxmayaraq Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin (indiki Bakı Ağır Cinayətlər Məhkəməsi) hökmü ilə Gürcüstan vətəndaşları - Nadir Əliyev, Cavidan Amirov və Nəcəf Süleymanov ömürlük, Ariz Qabulov isə 11 il müddətinə azadlıqdan məhrum edilib. Musavat.com terror aktının 15 illiyi ərəfəsində Nadir Əliyevin vəkili olmuş Hüseynxan Mustafayevlə əlaqə saxlayıb. Vəkil müvəkkilinin barəsindəki hökmlə razı olmadığını, Azərbaycan məhkəmələrində günahsızlığını sübut etmək üçün çabalarından sonra Avropa Məhkəməsinə üz tutduğunu bildirib. Vəkil bildirib ki, şikayət qəbul olunsa da sonradan heç bir izahat verilmədən baxışdan çıxarılıb.

Üstündən 15 il keçməsinə baxmayaraq, geniş ictimaiyyət hələ də bu qanlı terror aktı ilə bağlı bir sıra cavabsız suallar qarşısındadır. Bu hadisə niyə baş verdi? Qətliamın motivi nə idi? Terrorçu elan edilən Fərda Qədirov bir psixopat-manyak idi, yoxsa xüsusi təlim görmüş terrorçu? Hadisənin arxasında hansısa dövlətin kəşfiyyat strukturu durmuşdu? Terrorçu tək olmuşdu, yoxsa "qara işi" görəndən sonra onu da zərərsizləşdirən biri və ya bir neçəsi olub?

Suallar çoxdur. Bunların bəzilərinin yarımçıq və rəsmi qəbul edilmiş cavabları var, amma illər keçdikcə bu cavablar daha da inandırıcı görünmür. Fərda Qədirov Gürcüstanda doğulub-böyüyüb, Rusiyada yaşayıb və Azərbaycanda terror həyata keçirib. Bunu niyə etməli idi? Axı Azərbaycanda onun xətrinə dəyən, həyatını qaraldan, karyerasına mane olan, haqsızlıqlara məruz qoyan heç kim yox idi. Əgər adam ətrafındakı insanların əlindən zülm-zillət çəkibsə, onlara qarşı nifrət ovqatına köklənibsə belə, bu halda yenə doğulub-böyüdüyü və ya faktiki olaraq yaşadığı ölkənin insanlarına nifrət etməli, qisasını onlardan almalı idi. Fərda Qədirov zombiləşmiş psixopat idisə və hökmən azərbaycanlı gəncləri öldürməyə proqramlaşdırılmışdısa, bunu "Sınıq körpü" sərhəd-keçid məntəqəsini keçəndən bir az sonra, elə Qazax şəhərinin bazarında da edə bilərdi.

Maraqlıdır ki, müdhiş olay 2009-cu ildə Azərbaycan büdcəsinə yüz milyonlarla dollar həcmində neft gəlirləri daxil olan günlərdə törədilib. Neft Akademiyasının hədəf olaraq seçilməsi də bu baxımdan təsadüfi görünmür. Həmin günlərdə neft bumuna görə Azərbaycanın adı dünyada dillər əzbəri idi. Azərbaycan manatı dünyanın 3 ən bahalı valyutasından birinə çevrilmişdi. Bir sıra qonşu və uzaq dövlətlərdə bu tərəqqinin qısqanclıq doğurduğu gün kimi aydın idi. Hər halda, həmin ölkələrin mediasında ölkəmizə yönəlik mənfi yüklü materiallar çoxalmışdı. Ona görə də Azərbaycanın məhz ən həssas yerindən - uğurlarının əsas qaynağı olan neftin və gəncliyin üzərindən vurulması sui-qəsd nəzəriyyəsi tərəfdarları ilə yanaşı, ayıq, soyuq düşünməyi üstün tutan analitiklərin də nəzərini şimala yönəltmişdi. Qeyd edək ki, faktla bağlı Cinayət Məcəlləsinin terrorçuluq, qəsdən adam öldürmə, qaçaqmalçılıq, qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə və qanunsuz olaraq narkotik vasitələri əldəetmə, saxlama və daşıma maddələri ilə cinayət işi başlanıb. Hüquq-mühafizə orqanlarının apardığı araşdırmadan sonra məlum olub ki, terror aktı törədən Fərda Qədirov erməni xüsusi xidmət orqanlarının sifarişini yerinə yetirib. İttihama görə, cinayətin təşkilatçısı Gürcüstan vətəndaşı, erməni əsilli Mardun Qumaşyandır. O, müttəhimlərlə cinayət əlaqəsinə girərək, onları Bakıda azərbaycanlılara qarşı terror aktı törətməyə razı salıb. İstintaq hesab edib ki, Qumaşyan terrorçuluğu maliyyələşdirərək bu cinayətin təşkili və həyata keçirilməsi üçün onlara ümumilikdə 50 min ABŞ dolları məbləğində pul verəcəyini vəd edib. O, əvvəlcədən Fərda Qədirova 5 min ABŞ dolları məbləğində pul verərək, qalan məbləği cinayət törədildikdən sonra verəcəyi, eləcə də Fərda Qədirov tərəfindən hələ 2008-ci il noyabrın 8-də Tiflisdə odlu silah satışı mağazasından aldığı "Makarov" tipli tapança və 200 ədəddən artıq patronların qanunsuz olaraq Azərbaycana keçirilməsi barədə razılığa gəlib. İbtidai istintaq Fərda Qədirovun ruhi xəstə olduğunu müəyyən edib. Belə ki, o, əvvəlcədən videomüraciət yazıb və orada bu cinayəti Azərbaycan cəmiyyətinə nifrət etdiyinə görə törətdiyini deyib. Fərda Qədirovun ölümündən öncə mobil telefonuna yazdırdığı videomüraciət yerli televiziyalarda nümayiş etdirilib. Gürcüstanda yaşayan, orada çörək bişirib satmaqla məşğul olan Mardun Qumaşyan isə iddia etmişdi ki, onun ADNA terroru ilə hər hansı bir əlaqəsi yoxdur.

**Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 73 (8446) 30 aprel 2024

**Aprelin 15-də Zaqatala rayon sakini Murad Ramazan oğlu Ramazanov "Botulizm (turşu) zəhərlənməsi" diaqnozu ilə Bakı şəhəri Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə daxil olub. Baş Prokurorluqdan verilən məlumata görə, Zaqatala sakini aprelin 25-də saat 23:00 radələrində müalicə aldığı xəstəxananın Toksikologiya şöbəsində vəfat edib.**

# Ev, yoxsa market turşusu yeyək - zəhərlənmə təhlükəsi...

## Ekspertlərdən SOS: "Ev turşuları düzgün hazırlanmazsa, ailələr məhv ola bilər"

İlkin araşdırma zamanı müəyyən edilib ki, M.Ramazanov pomidor turşusu yedikdən sonra özünü narahat hiss etdiyi üçün xəstəxanaya müraciət edib. Araşdırma aparılır.

Bəllidir ki, pomidor-xiyar turşusu yay-qış Azərbaycan mətbəxinin də ayrılmaz tərkib hissəsidir. Bəs bağlama turşunun zəhər mənbəyi olduğunu necə bilmək olar? Nələri nəzərə almaq lazımdır ki, botulizm kimi qorxulu halla üzləşməyək? Marketdəki, yoxsa ev şəraitində hazırlanmış turşulara üstünlük verməli?

Səhiyyə Nazirliyi rəsmiləri əhaliyə müraciətlə daha çox istehsalat şəraitində hazırlanan konservləşdirilmiş məhsullardan istifadə etməyi israrla tövsiyə edir. Bildirirlər ki, konservləşdirilmiş məhsulların normalara cavab vermədiyini yalnız laboratoriya şəraitində aşkarlamaq mümkündür. Ev şəraitində çoxları nəyi necə etməyi, tutmanı necə hazırlamağı bilmirlər. Bəzən düzgün sterilizasiya aparmırlar, elə bilirlər ki, tutma bağlamaq çox asandır. Amma əslində tutma hazırlayarkən diqqət edilməli çox məqamlar var. Məsələn, tərəvəz də, tutmanın bağlanacağı qab da təmiz suyla yaxşı-yaxşı yuyulmalıdır. Qabda torpaq qırıntıları, toz hissəcikləri qalmamalıdır.




Belə hissəciklər qaldıqda zəhərlənmə baş verir.

Ekspertlərə görə, konservləşdirmə zamanı banka və tərəvəz təmiz yuyulmadığına görə belə hallar qeydə alınır. Bu zaman bankada yaranan botulizm mikrobu inkişaf edir və qidalanma zamanı zəhərlənmə gedir. Bu da müxtəlif insanlarda özünü bir cür büruzə verir. Əgər insanın orqanizmi mikroba tab gətirirsə, o, ölümdən qurtula bilir, amma orqanizm zəifdirsə, zəhərlənmə ölümlə nəticələnir.

**İstehlakçı hüquqlarının müdafiəçisi Eyyub Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, Azərbaycan mətbəxində ciddi bir qida mədəniyyətsizliyi var:** "Neçə ildir ki, biz bununla mübarizə aparırıq. Torpaq bütün nemətlərin mənbəyi olduğu kimi ən təhlükəli mikroorqanizmlərin də mənbəyidir. Evdə turşu hazırlanan zaman bu cür təhlükəli mikroorqanizmlər turşunun tərkibində gəlib süfrəyə çıxır. Bu, yolverilməzdir. Hətta bazarlarda turşuların satılmasının şahidi oluruq. Qəfildən öldürmə olmasa da, tədricən zəhərlənməyə gətirə bilər. Azərbaycanda geniş yayılmış səhv bir ənənədir. Əgər insanlar turşu istəyirsə, sənaye üsulu ilə hazırlanmış turşulardan ala bilərlər. Azad İstehlakçılar Birliyi illər boyu ev şəraitində hazırlanan qidaların qarşısını ala bilmədiyi üçün 2023-cü ildə Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə rəsmi müraciət etdi, bizə qrant ayrıldı. Bu ilin may ayında regionlarda ev şəraitində hazırlanan turşuların təhlükəsiz hazırlanması treninqlərini keçirəcəyik. Bu, yüzə qədər əhalini əhatə edəcək, eləcə də onların etiketlənməsi və bazara çıxarılmasını təşviq edəcəyik ki, təhlükəsiz ev şəraitində hazırlanan məhsullar bazara çıxarılsın. Əlbəttə, ev şəraitində hazırlanan turşuların əleyhinəyik, amma qarşısını ala bilmədiyimiz üçün biz bunların təhlükəsiz istehsalına nail olmaq istəyirik. Bu layihə 5 ay davam edəcək".

**İnvaziv ağrı mütəxəssisi Zülfüqar Yusifov da deyib ki, evdə hazırlanan turşular daha təhlükəli olur:** "Çünki sənaye üsulunda bütün protokollar, təhlükəsizlik gözlənilir. Lakin evdə turşu hazırlanarkən prosesdəki təmizlik işlərinə nə dərəcədə əməl olunması sual altında olur. Təbii ki, hər kəs öz qabiliyyətinə uyğun iş görür. Nəticədə bəzən turşu məhsullarından mədə-bağırsaq infeksiyaları yaranır, bu da müəyyən fəsadlara yol açır.

Ümumiyyətlə, çalışmaq lazımdır ki, turşulardan, konservləşdirilmiş, hisə verilmiş məhsullardan uzaq olaq. Bu, mədə-bağırsaq, böyrək-sidik sisteminə təsir edir. Bu baxımdan daha çox təzə qidalardan istifadə etmək tövsiyə edilir".

**Qida texnoloqu Ağa Salamov ev şəraitində şoraba hazırlayan zaman diqqət edilməli məqamlardan danışıb:** "İlk növbədə meyvə və tərəvəzlərin təmizliyinə diqqət edilməlidir. Əks halda, botulizm zəhərlənməsinə gətirib çıxara bilər. Çünki bu bakteriyalar torpaqda yaşayır. Eyni zamanda turşu üçün istifadə olunacaq meyvə-tərəvəzlər suda saxlanmalıdır. Suya sirkə qatmaq olmaz. 10 litr suya 3,5 litrə 2 xörək qaşığı çay sodası miqdarı istifadə etmək olar. Tərəvəzləri 15 dəqiqə sodalı suda saxlayıb, durulayıb içinə çiy su tökməmək şərti ilə bişirib bağlaya bilərlər. Şorabanın ağzının düzgün bağlanması da şərtdir".

Qeyd edək ki, 2023-cü il üzrə qida zəhərlənmələrinin statistikası açıqlanıb. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən bildirilib ki, 2023-cü ildə qida zəhərlənmələri ilə bağlı müraciət edənlərin sayı 763 nəfər olub. Onlardan 143-ü təsdiqini tapmış zəhərlənmə faktıdır.

Qida zəhərlənməsi ilə əlaqədar qeydiyyata alınmışların sayı 1 128 nəfərdir. Təsdiq olunmuş qida zəhərlənməsi ilə zərərçəkənlərin sayı isə 285 nəfər təşkil edir. Zəhərlənmədən ölənlərin sayı iki nəfər olub.

Mütəxəssislər onu da qeyd edir ki, qida zəhərlənmələri məhsulların tərkibində olan mikroorqanizmlərdən ifraz olunan toksinlər nəticəsində əmələ gəlir. Onların törətdiyi intoksikasiyalardan botulizm və stafilakokk zəhərlənmələrini göstərmək olar. Stafilakokklar əsasən məhsullara işçilərin (aşpaz,sağıcılar və s.) əllərindəki yaralardan, bədəndəki irinli-iltihab proseslərindən keçə bilər. Çox vaxt stafilokokk intoksikasiyaları süd, süd məhsulları (kəsmik, pendir, dondurma), kremli qənnadı məmulatları ət və balıq məmulatları, bişmiş kolbasa, yağda hazırlanmış balıq konservləri və s. yedikdə baş verir. Botulizm isə son dərəcə ağır qida zəhərlənməsidir. Qida ilə insanın bağırsağına düşdükdə toksin qana daxil olub, ürək-damar və mərkəzi sinir sistemini zəiflədir. Adətən inkubasiya dövrü 12-dən 24 saata qədər davam edir, lakin çox az və çox uzun müddətdə də ola bilər.

Xəstəliyin əsas əlamətləri: görmənin, nitqin pozulması, əzələnin iflic olmasıdır. Botulizmdən ölüm halları yüksəkdir. Müalicə üçün effektiv vasitə antitoksik zərdabın tətbiq (serum) edilməsidir. Zəhərlənməyə səbəb olan məhsullar müxtəlif ola bilər. Buna əsasən turşuluğu aşağı olan ev şəraitində hazırlanan bitki konservləri, zəif duzlanmış ət və balıqlar, hisə verilmiş məhsullar aiddir. Konserv sənayesində sterilizasiya rejiminə və sanitar tələblərinə riayət etdikdə, balığın emalı və saxlanmasında lazımi texniki və sanitar tədbirlər həyata keçirildikdə bu xəstəlik çox az hallarda müşahidə edilir. Evdə hazırlanan (meyvə, tərəvəz, göbələk) konservlərdən istifadə etdikdə, həmçinin qaxac balıq məhsullarının evdə hisə verilməsi və duzlanmasının botulizm hadisələri müşahidə edilir. Bunun səbəbi məhsulun təmiz yuyulmaması, konservanın kifayət qədər termik emal olunmaması və saxlanmaması, xüsusilə yüksək turşuluğun olmaması (pH 4,6 yuxarı), lazımi termik rejimə əməl olunmamasıdır.

Qida infeksiyalarını isə əsasən mikroorqanizmlərin özləri yaradır. Ən çox qida toksikoinfeksiyası yaradan salmonellalardır. İnsanlarda baş verən salmonelloz toksikoinfeksiyalar əsasən ət-ət məhsullarının istehlakı zamanı baş verir. Qidadan zəhərlənmə müxtəlif səbəblərdən ola bilər. Zəhərlənməni təbiətcə zəhərli olan qidalar (bəzi növ balıq, göbələklər, meyvə və s.) və yaxud qidaya düşən zəhərli maddələr (mis, sink, qurğuşun, arsen və s.) törədə bilər. Zəhərlənmə həmçinin qidanın xüsusi növ mikroblarla və yaxud onların zəhərləri ilə yoluxması nəticəsində baş verir. Statistika göstərir ki, qidadan zəhərlənmələr başlıca olaraq mikrob təbiətli zəhərlənmələr hesabına olur. Onlar mikrobla yoluxmuş qidanı qəbul etdikdən sonra kəskin keçməsi və tez baş verməsi (15 dəqiqədən tutmuş 24 saata qədər) ilə olur. Bu zaman qarında ağrılar, ürəkbulanma, qusma olur, bundan sonra ishal, ümumi zəiflik baş verir, ürək-damar sisteminin fəaliyyəti zəifləyir və hər bir zəhərlənmə üçün xarakter olan başqa əlamətlər olur.

İstənilən qida zəhərlənməsi zamanı qarşısı vaxtında alınmazsa, çox ciddi fəsadlar verə bilər, hətta ölüm təhlükəsi belə var. Odur ki, qida məhsullarının temperatur rejimlərinə, istehsal tarixlərinə, saxlanma və təkrar istifadə qaydalarına, sanitar-gigiyena qaydalarına düzgün riayət etmək lazımdır.

❑ **Afaq MİRAYİQ,**
**Musavat.com**




## İmtahanların saatında isti hava şəraiti ilə əlaqədar dəyişiklik edilib

**Dövlət İmtahan Mərkəzi tərəfindən mayın 5-də və daha sonrakı tarixlərdə (dövlət qulluğu ilə bağlı 12 mayda olan imtahanlar istisna olmaqla), eləcə də iyun, iyul və avqust aylarında keçiriləcək imtahanlar bu dövr üçün xarakterik olan isti hava şəraiti ilə əlaqədar saat 10:00-da başlanacaq.**

Bu barədə APA-ya DİM-dən məlumat verilib.

"İştirakçılar nəzərə almalıdır ki, imtahanların başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələnlər imtahan binasına buraxılmırlar.

Bundan əlavə, kütləviliyin qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilir və buraxılış vərəqəsində həmin vaxt göstərilir. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

Hər hansı bir imtahan üçün buraxılış vərəqələri imtahandan 5-7 gün öncə DİM-in saytına yerləşdirilir", - məlumatda qeyd olunub.

YENİ MÜSAVAT

Son səhifə

N 73 (8446) 30 aprel 2024

Aprel

## Daha sürətli arıqlamaq üçün yeməklərə bunu əlavə edin



**Pəhriz saxlayarkən adətən sevdiyiniz yeməklərdən imtina etmək lazımdır. Amma elə qidalar var ki, əksinə, arıqlayan insanın pəhrizinə daxil edilməlidir.**

Çəki artımından daha çox arıqlamağa kömək edən bir əlavə var. Söhbət üyüdülmüş darçından gedir. Bu məhsul qəhvə, qatıq, taxıl və bu ədviyyatın uyğun olduğu digər yeməklərə və ya içkilərə əlavə edilməlidir.

Bu əlavənin mühüm bir xüsusiyyəti var. Maddələr mübadiləsini sürətləndirməyə kömək edir. Bu, artıq çəki itirmək qərarına gələn bir insan üçün çox vacibdir.

## Onkoloq hazır qəhvədən tamamilə imtina etməyə çağırıb

**Rusiya Milli Tibbi Tədqiqat Onkologiya Mərkəzinin qastroenteroloq, dietoloq və onkoloqu Artur Bernatski hazır qəhvədən tamamilə imtina etməyə çağırıb. Onkoloq qeyd edib ki, hazır qəhvələrdə praktiki olaraq kofein yoxdur. Həkimin dediyinə görə, "üçü birində" kimi qəhvə içənlərin həyat tonusu qalxmır, əksinə, yuxuya gedirlər. Bu içkinin tərkibində faydalı heç nə yoxdur, lakin onun tərkibində kofein turşusu və teobromin qalır.**

Həkim hazır qəhvəni surroqat, kofeinsiz qəhvəni isə reaksiyalar nəticəsində maddələrin ayrıldığı təhrif olunmuş məhsul adlandırıb.

# Günəş əleyhinə kremlər dəri xərçəngi yarada bilər



**"Həkimlər xüsusi kremlərdən istifadə edərək özünüzü Günəşin mənfi təsirinə məruz qalmadan qorumağı tövsiyə edirlər. Amma burada bir nüans var: Bu zaman orqanizmdə D vitamini ifraz olunmur. Bu vitamin çox az olarsa, dəri xərçəngi inkişaf edə bilər".**

Bunu rusiyalı kimyaçı, Biokimyəvi Fizika İnstitutunun biopolimerlərin funksional xassələri laboratoriyasının müdiri Mariya Semyonova bildirib. "Fakt budur ki, Günəş əleyhinə kremlər dərini ultrabənövşəyi şüalardan qoruyur. Həkimlər həmçinin qorunmaq üçün geyim, papaq, günəş eynəyi kimi vasitələrdən istifadə etməyi məsləhət görürlər. Lakin digər tərəfdən, D vitamininin ciddi çatışmazlığı dərinin vaxtından əvvəl qurumasına və hiperpiqmentasiyasına, elastikliyini itirməsinə, qırışların yaranmasına, qızartılara səbəb olur", - deyə o qeyd edib.

Həkim tövsiyə edib ki, xüsusilə payız-qış dövründə D vitaminini qidaya əlavə etmək lazımdır.

## Pillәkәnlә qalxmaq ani ölüm riskini azaldır



**Britaniyalı alimlər müəyyən ediblər ki, müntəzəm olaraq pilləkənlə qalxmaq insan ömrünü xeyli uzada bilər. Bu elmi işin nəticələri Avropa Kardiologiya Cəmiyyətinin (ECS) saytında dərc olunub. Alimlər pilləkənlərin sayını və qalxma sürətini nəzərə almadan bu mövzu üzrə mövcud araşdırmaları toplayıblar. Beləliklə, ümumilikdə 480 479 nəfərin iştirakı ilə doqquz tədqiqat aparılıb.**

Tədqiqat populyasiyasına həm sağlam fərdlər, həm də anamnezində infarkt və ya periferik arteriya xəstəliyi olanlar daxildir. İştirakçıların yaş həddi 35-84 arasında olub. Alimlər müəyyən ediblər ki, pilləkənlərlə qalxmaq hər hansı səbəbdən ani ölüm riskini 24%, ürək-damar xəstəliklərindən ölüm riskini isə 39% azaldır. Bundan əlavə, gəzməyin infarkt, ürək çatışmazlığı və insultdan qorunduğu müəyyən edilib.

## Həm xərçəngdən qoruyur, həm də arıqladır



**Kətan toxumunun faydaları saymaqla bitmir. Üyüdülmüş və ya toxum şəklində istifadə edilən bu ərzaq vitamin və mineral mənbəyi olmaqla yanaşı, proteyin, lif və omega-3 ilə zəngindir. Əgər vegeterian qidalanmanı üstün tutursunuzsa, kətan toxumu ilə omeqa-3 ehtiyacınızı tam şəkildə qarşılaya bilərsiniz. Bu toxum eyni zamanda liqnan qaynağıdır. Liqnan xərçəng riskini azaldan, antioksidant və estrogen xüsusiyyətlərə sahib birləşmədir. Maraqlıdır ki, kətan toxumunun tərkibində digər bitkilərdən 800 dəfə çox liqnan var. Araşdırmalara görə, bu bitkidən istifadə edən qadınlarda döş xərçənginə yoluxma riski olduqca aşağıdır.**

Pəhrizdə olanlar da bu toxumun faydalarından yararlanmalıdır. Toxum su ilə birlikdə qəbul edildikdə mədədə şişərək toxluq hissi yaradır. Eyni zamanda şəkəri tənzimləyərək, tez-tez acmağınızın qarşısını alır.

## Bunları bilirsinizmi?

* Napoleonun əsgərlərinin generala "SƏN" deyə müraciət etmək hüquqları var idi.

*Birinci minillikdə 365 min 250 gün, ikinci minillikdə 365 min 237 gün olub. Üçüncü minillikdə isə 365 min 242 gün olacaqdır.

*Dünyadakı canlılardan düz xətt çəkə bilən yeganə məxluq insandır.

* Yaponiyaya atılan ilk atom bombası "Enola Gay", ikinci isə "Bocks Car" adlanan təyyarələrdə yerləşmişdir.

* Şampan şüşəsi tıxacının uçuş sürəti saniyədə 14, uçuş məsafəsi isə 12 m-dir.

* İlk reklam 1477-ci ildə İngiltərədə istehsal olunub. Bu, dua kitabının reklamı idi.

* Tarixdə ən qısa müharibə 1896-cı il avqustun 27-də Böyük Britaniya ilə Zanzibar arasında baş vermişdir. Bu müharibə 38 dəqiqə davam etmişdir.

* Gülüş zamanı insanın 17 əzələsi işləyir.

* İnsanın həyatı boyu başında çıxan tükləri ölçsək, 725 km edəcək.

* Cek-Petroşitel XIX əsrin ən tanınmış qatilidir. O, öz cinayətlərini yalnız və yalnız bazar günləri həyata keçirib.

* Dahi fizik Albert Eynşteyn öləndə son sözlərini özü ilə o dünyaya aparmışdır. Çünki ölən zaman onun yanında olan tibb bacısı alman dilini bilmirdi.

* "Yüzillik müharibə" (1337-1453) fasilələrlə 116 il davam etmişdir.

* İnsan orqanizmində leykositlər 2-4, eritrositlər isə 3-4 ay yaşayır.

* Fransızlar barmaqları pus, indeks, macor, anyuler, orikyuler deyə adlandırırlar.

## Dünyanın ən hündürboylu müğənnisi vəfat etdi



**Braziliyalı müğənni Mariya Felisiana 77 yaşında vəfat edib.O, dünyanın ən hündürboylu müğənnisi kimi tanınıb. Mariyanın boyu 2,25 metr idi. Qeyd edək ki, Felisiana 16 yaşından səhnədə çıxış edib. 10 yaşına qədər o, adi bir uşaq kimi hündür olub, lakin sonra kəskin şəkildə uzanmağa başlayıb. Felisiana oxumaqla yanaşı, sirkdə çıxış edib və basketbol oynayıb. 1995-ci ildə ayağında uğursuz əməliyyat keçirib, nəticədə onun əzasının bir hissəsi amputasiya edilməli olub. Son illər sənətçi çoxsaylı xəstəliklərə görə yataq xəstəsi olub. O, pnevmoniya diaqnozu ilə xəstəxanaya yerləşdirildikdən sonra vəfat edib.**

## 8 stəkan su nələri dəyişə bilər?

**Sara Smit adlı qadın sosial şəbəkədə etdiyi "əvvəl və sonra" foto nümunəsi ilə içməli suyun nə qədər faydalı olduğunu nümayiş etdirib. 42 yaşlı Sara Smit uzun müddətdir başağrısı və həzm problemlərindən əziyyət çəkirdi. Kömək üçün müraciət etdiyi nevroloq və dietoloq ona gündə ən az üç litr təmiz su içməyi məsləhət görür. O, 28 gün ərzində həkimlərin təlimatlarını yerinə yetirib və görünüşünün necə dəyişdiyini müşahidə etmək üçün gündəlik tərtib edib. Daha sonra bunu öz "Twitter" izləyiciləri ilə bölüşüb:**

**1-ci həftə:** Bədəndə xırda səpgilər meydana çıxdı - bu bədənin toksinlərdən təmizlənməsinin nəticəsi idi. Baş ağrıları yoxa çıxdı və oynaqların hərəkətliliyi yaxşılaşdı.

**2-ci həftə:** Dəri daha vahid ton aldı, göz ətrafındakı qırışlar və qaraltılar azalmağa başladı.

**3-cü həftə:** Göz altındakı tünd dairələr və qırışlar tamamilə görünməzdir. Dəri nəzərə çarpacaq dərəcədə dartılıb. Gözlərdəki quruluq yoxa çıxıb.

**4-cü həftə:** Özümü daha arıq və sağlam hiss edirəm. Həyat yoldaşım və dostlarım deyirlər ki, on yaş cavan görünürəm.

28 günlük dövrün sonunda Sara öz vəziyyətini təsvir edərək, su istehlakının artması səbəbindən daha az yediyini və buna görə də arıqladığını qeyd edir.

Yaxşı nəticədir! Və mütləq cəhd etməyə dəyər. Gündə bir neçə stəkan su ilə başlaya bilərsiniz . Bu, görünüşünüzü dəyişdirmək üçün kifayət edəcək.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114

SAYI: 1.500